# Bank Olmayan Kredit Təşkilatı "Embafinans" MMC

## 31 dekabr 2016-cı il tarixinə

## Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun Rəyi

# MÜNDƏRİCAT


MÜSTƏQİL AUDİTORUN RƏYİ

MALİYYƏ HESABATLARI

Maliyyə Vəziyyəti haqqında Hesabat ..... 1
Mənfəət və ya Zərər və sair Məcmu Gəlir haqqında Hesabat ..... 2
Kapitalda Dəyişikliklər haqqında Hesabat ..... 3
Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat ..... 4

Maliyyə Hesabatlarına Qeydlər

1 Giriş ..... 5
2 Şirkətin Əməliyyat Mühiti ..... 5
3 Əsas Uçot Siyasətlərinin Qısa Xülasəsi ..... 6
4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr ..... 11
5 Yeni və ya Yenidən İşlənmiş Standartların və onlara dair Şərhlərin Tətbiqi ..... 12
6 Yeni Uçot Qaydaları ..... 12
7 Pul Vəsaitləri və onların Ekvivalentləri ..... 14
8 Müştərilərə Verilmiş Kreditlər ..... 14
9 Əmlak, Avadanlıq və Qeyri-Maddi Aktivlər ..... 17
10 Digər Aktivlər ..... 18
11 Banklardan Alınmış Kreditlər ..... 18
12 Mebel İstehsalçısına və Digər Tərəfdaşlara Ödənilməli Vəsaitlər ..... 18
13 Nizamnamə Kapitalı ..... 19
14 Digər Öhdəliklər ..... 19
15 Faiz Gəliri və Xərci ..... 19
16 Haqq və Komissiya Gəliri və Xərci ..... 20
17 İnzibati və sair Əməliyyat Xərcləri ..... 20
18 Mənfəət Vergisi ..... 21
19 Maliyyə Risklərinin İdarə Edilməsi ..... 22
20 Kapitalın İdarə Olunması ..... 26
21 Təəhhüdlər və Şərti Öhdəliklər ..... 26
22 Maliyyə Alətlərinin Ədalətli Dəyəri ..... 27
23 Maliyyə Alətlərinin Qiymətləndirmə Kateqoriyaları üzrə Təqdim Edilməsi ..... 28
24 Əlaqəli Tərəflərlə Əməliyyatlar ..... 28
25 Hesabat Dövründən sonra Baş Vermiş Hadisələr ..... 29

# *Müstəqil Auditorun Rəyi*

"BOKT Embafinans" MMC-nin Səhmdarlarına və İdarə Heyətinə:

## *Rəy*

Bizim rəyimizcə, hazırkı maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından "BOKT Embafinans" MMC-nin ("Şirkət") 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") uyğun olaraq düzgün əks etdirir.

**Auditin predmeti**

Şirkətin maliyyə hesabatları aşağıdakılardan ibarətdir:

- 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə kapitalda dəyişikliklər haqqında hesabat;
- həmin tarixdə tamamlanan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat; və
- əsas uçot siyasətləri və digər izahedici məlumatlar da daxil olmaqla, maliyyə hesabatlarına qeydlər.

## *Rəy üçün əsaslar*

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz rəyimizin *"Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti"* bölməsində əks etdirilir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Müstəqillik**

Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə, Auditorların Peşə Etikası Məcəlləsinin etik tələblərinə və Azərbaycan Respublikasında maliyyə hesabatları üzrə apardığımız audit yoxlamasına tətbiq edilən Auditorun Müstəqilliyi Qaydalarına uyğun olaraq Şirkətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz Etika Məcəlləsinə uyğun olaraq, etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik.

## *Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti*

Rəhbərlik maliyyə hesabatlarının BMHS-ə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Şirkəti ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

## *Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti*

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin Beynəlxalq Audit Standartlarına uyğun olaraq auditin aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, yanlış təqdimat və ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.
- Şirkətin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətlərinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Şirkətin fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında düzgün təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

PricewaterhouseCoopers Audit Azerbaijan LLC

23 iyun 2017-ci il

Bakı, Azərbaycan Respublikası

*PraysvoterhausKupers Audit Azərbaycan MMC*
*Landmark Ofis Plaza III, 12ci mərtəbə, 90A Nizami küçəsi, AZ 1010, Bakı, Azərbaycan*
*T: +994 (12) 497 25 15, F:+994 (12) 497 74 11, www.pwc.com/az*

| *Azərbaycan manatı ilə* | Qeyd | 31 dekabr 2016 | 31 dekabr 2015 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 100,646 | 118,866 |
| Müştərilərə verilmiş kreditlər | 8 | 15,102,199 | 16,058,646 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 9 | 5,975,263 | 5,785,635 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 18 | 179,010 | 226,801 |
| Digər aktivlər | 10 | 601,961 | 1,062,313 |
| **CƏMİ AKTİVLƏR** | | **21,959,079** | **23,252,261** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Banklardan alınmış kreditlər | 11 | 8,215,342 | 7,553,775 |
| Mebel istehsalçısına və digər tərəfdaşlara ödənilməli vəsaitlər | 12 | 238,541 | 3,067,531 |
| Cari il üzrə mənfəət vergisi öhdəlikləri | | 207,014 | - |
| Digər öhdəliklər | 14 | 420,726 | 830,951 |
| **ÖHDƏLİKLƏR** | | **9,081,623** | **11,452,257** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 13 | 10,000,000 | 10,000,000 |
| Bölüşdürülməmiş mənfəət | | 2,877,456 | 1,800,004 |
| **CƏMİ KAPİTAL** | | **12,877,456** | **11,800,004** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **21,959,079** | **23,252,261** |

23 iyun 2017-ci il tarixində Rəhbərliyin adından təsdiqlənmiş və imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT BANK OLMAYAN KREDİT TƏŞKİLATI "EMBAFİNANS" LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC

Samir İsgəndərov
Baş İcraçı Direktor

Elnur Kazımov
Maliyyə Direktoru

| *Azərbaycan manatı ilə* | Qeyd | 2016 | 2015 |
|---|---|---|---|
| Faiz gəliri | 15 | 4,692,960 | 7,900,524 |
| Faiz xərci | 15 | (936,224) | (1,961,766) |
| **Xalis faiz gəliri** | | **3,756,736** | **5,938,758** |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatın bərpası/(yaradılması) | 8 | 135,685 | (594,619) |
| Faiz hesablanan aktivlər üzrə ilkin tanınma düzəlişi | | (38,544) | (1,365,793) |
| Faiz hesablanan öhdəliklər üzrə ilkin tanınma düzəlişi | | - | 107,114 |
| **Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatın bərpasından/(yaradılmasından) sonra xalis faiz gəliri** | | **3,853,877** | **4,085,460** |
| Haqq və komissiya gəlirləri | 16 | 491,488 | 25,490 |
| Haqq və komissiya xərcləri | 16 | (192,019) | (274,631) |
| Digər əməliyyat gəlirləri | | 80,433 | 97,892 |
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərər çıxılmaqla gəlir | | (2,767) | (687,998) |
| **Xalis əməliyyat gəliri** | | **4,231,012** | **3,246,213** |
| İnzibati və sair əməliyyat xərcləri | 17 | (2,898,859) | (3,126,740) |
| **Vergidən əvvəlki mənfəət** | | **1,332,153** | **119,473** |
| Mənfəət vergisi xərci | 18 | (254,701) | (52,694) |
| **İl üzrə mənfəət** | | **1,077,452** | **66,779** |
| **İl üzrə cəmi məcmu gəlir** | | **1,077,452** | **66,779** |

| *Azərbaycan manatı ilə* | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2014-cü il tarixinə qalıq** | **10,000,000** | **1,733,225** | **11,733,225** |
| İl üzrə mənfəət | - | 66,779 | **66,779** |
| **31 dekabr 2015-ci il tarixinə qalıq** | **10,000,000** | **1,800,004** | **11,800,004** |
| İl üzrə mənfəət | - | 1,077,452 | **1,077,452** |
| **31 dekabr 2016-cı il tarixinə qalıq** | **10,000,000** | **2,877,456** | **12,877,456** |

| *Azərbaycan manatı ilə* | Qeyd | 2016 | 2015 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Alınmış faizlər | | 4,426,922 | 6,595,726 |
| Ödənilmiş faizlər | | (915,784) | (1,909,822) |
| Alınmış haqq və komissiyalar | | 491,488 | 25,490 |
| Ödənilmiş haqq və komissiyalar | | (192,019) | (274,631) |
| Alınmış digər əməliyyat gəlirləri | | 80,433 | 97,892 |
| Ödənilmiş əməliyyat xərcləri | | (2,416,324) | (2,927,343) |
| Ödənilmiş mənfəət vergisi | | (20,000) | (113,787) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə daxil olan/(istifadə edilən) pul vəsaitlərinin hərəkəti** | | **1,454,716** | **1,493,525** |
| *Xalis azalma/(artım):* | | | |
| - müştərilərə verilmiş kreditlərdə | | 1,386,847 | 10,347,983 |
| - digər aktivlərdə | | 343,666 | (78,661) |
| *Xalis azalma:* | | | |
| - digər öhdəliklərdə | | (477,445) | (1,970,915) |
| - tərəfdaşlara ödənilməli vəsaitlərdə | | (2,887,382) | (4,841,061) |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə edilən/(daxil olan) xalis pul vəsaitləri** | | **(179,598)** | **4,950,871** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | | (525,940) | (8,123) |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **(525,940)** | **(8,123)** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Banklardan alınmış kreditlər üzrə gəlirlər | | 5,300,000 | 2,500,000 |
| Banklardan alınmış kreditlərin qaytarılması | | (4,609,914) | (7,369,575) |
| Səhmdarlar tərəfindən yerləşdirmələr üzrə gəlirlər | | - | 1,300,000 |
| Səhmdarlara qaytarılan ödənişlər | | - | (1,391,121) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan/(istifadə edilən) xalis pul vəsaitləri** | | **690,086** | **(4,960,696)** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | (2,768) | (54,824) |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis azalma** | | **(18,220)** | **(72,772)** |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | | 118,866 | 191,638 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | | **100,646** | **118,866** |

5-29-cu səhifələrdəki qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsidir.

## 1 Giriş

Hazırkı maliyyə hesabatları 31 dekabr 2016-cı il tarixində başa çatan il üzrə Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq "BOKT Embafinans" MMC ("Şirkət") üçün hazırlanmışdır.

Şirkət Azərbaycan Respublikasında təsis olunub və bu ölkədə fəaliyyət göstərir.

31 dekabr 2016 və 2015-ci il tarixlərinə Şirkətin səhmdarları haqqında məlumat aşağıda təqdim edilir:

| Səhmdarlar | 31 dekabr 2016 | 31 dekabr 2015 |
|---|---|---|
| Cənab Elşad Abbasov İnşalla oğlu | 60% | 60% |
| Cənab Məşhur Məmmədov Şahbaz oğlu | 40% | 40% |
| **Cəmi** | **100%** | **100%** |

31 dekabr 2016 və 2015-ci il tarixlərinə Şirkətin son nəzarətedici tərəfi cənab Elşad Abbasov İnşalla oğludur.

***Şirkətin əsas fəaliyyəti.*** "Embafinans" MMC ("Şirkət") 2012-ci ildə Azərbaycan Respublikasında təsis edilmiş Bank olmayan Kredit Təşkilatıdır. Şirkət Azərbaycan Respublikası Mərkəzi Bankı ("ARMB") tərəfindən verilmiş BKT-10 saylı xüsusi lisenziya əsasında fəaliyyət göstərir. Şirkət ARMB-nin qaydalarına uyğun olaraq yenidən qeydiyyatdan keçmişdir və bu qaydalara əsasən yalnız hüquqi şəxslər Azərbaycan Respublikası ərazisində kredit fəaliyyəti göstərə bilər. Şirkətin əsas fəaliyyət istiqaməti kreditlərin verilməsindən ibarətdir. Şirkət əsasən fiziki şəxslərə öz əlaqəli tərəfi olan "Embawood" MMC-dən mebel və digər məişət avadanlıqları almaq üçün kreditlər verir. 31 dekabr 2016-cı il tarixinə belə kreditlər müştərilərə verilmiş ümumi kreditlərin 95%-ni (31 dekabr 2015: 97%) təşkil etmişdir. Bu lisenziya Şirkətə təminat şəklində nağd depozitlər və belə depozitlər formasında təminatlar əldə etmək hüququ vermir.

***Şirkətin hüquqi və faktiki ünvanı.*** Şirkətin hüquqi və faktiki ünvanı aşağıdakı kimidir:

15 B.Bağırova küçəsi, AZ1065

Bakı, Azərbaycan Respublikası

***Təqdimat valyutası.*** Hazırkı maliyyə hesabatlarındakı məbləğlər başqa valyuta qeyd olunmadığı halda Azərbaycan Manatı ilə ("AZN") təqdim edilir.

## 2 Şirkətin Əməliyyat Mühiti

***Azərbaycan Respublikası.*** 2016-cı ildə qlobal iqtisadiyyatda baş verən proseslərin Azərbaycan iqtisadiyyatına mənfi təsirləri davam etmişdir. Dünya iqtisadiyyatında və başlıca tərəfdaş ölkələrdə iqtisadi artımın zəifləməsi və son bir neçə ildə neftin dünya qiymətinin orta səviyyəsinin aşağı olması Azərbaycanın xarici valyuta ehtiyatlarına və məcmu tələbə öz mənfi təsirini göstərmişdir.

İl ərzində Azərbaycanın tədiyə balansı dünya və region iqtisadiyyatında, eləcə də qlobal enerji bazarlarında gedən proseslərin fonunda hökumət tərəfindən fəal şəkildə idarə olunmuşdur. Azərbaycan üçün əlverişsiz beynəlxalq konyunktur şəraitdə 2015-ci ildə olduğu kimi 2016-cı ildə də tədiyə balansı kəsirli olmuşdur. Son 2 ildə həyata keçirilən məqsədyönlü makroiqtisadi siyasət, o cümlədən manata olan inamın bərpa olunması tədiyə balansının cari hesabına müsbət təsir etmişdir. İqtisadi artımın və tədiyə balansı göstəricilərinin mövcud dinamikası şəraitində Mərkəzi Bank manatın üzən məzənnə rejiminə keçdiyini elan etmişdir. Bu rejim milli valyutanın məzənnəsinin makroiqtisadi fundamentallar əsasında formalaşmasına şərait yaratmış və strateji valyuta ehtiyatlarının qorunmasına müsbət təsir etmişdir.

İqtisadi artımın dinamikası daxili tələbin dəyişməsinin təsiri altında formalaşmışdır. Daxili tələbin digər mühüm komponenti olan istehlakın səviyyəsi isə əmək haqqının, pul gəlirlərinin və faiz dərəcələrinin dinamikası, habelə, inflyasiya amillərinin təsiri altında formalaşmışdır. 2016-cı ildə də büdcə xərcləri daxili tələbə təsir edən mühüm amillərindən biri olmuşdur. Büdcə xərclərinin dinamikası investisiya qoyuluşlarına əhəmiyyətli təsir göstərmişdir. Struktur dəyişikliklər iqtisadi artım dinamikasına təsir etmişdir.

## 2 Şirkətin Əməliyyat Mühiti (davamı)

Dövr ərzində pul siyasəti qərarları inflyasiyanın azaldılmasına və bu əsasda milli valyutaya olan etimadın gücləndirilməsinə yönəldilmişdir. Makroiqtisadi vəziyyətdən və proqnozlardan asılı olaraq pul siyasəti alətlərinin parametrlərinə zəruri dəyişikliklər edilmişdir. Eyni zamanda, pul siyasəti çərçivəsinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görülmüşdür.

## 3 Əsas Uçot Siyasətlərinin Qısa Xülasəsi

***Maliyyə hesabatlarının tərtibatının əsasları.*** Hazırkı maliyyə hesabatları ilkin olaraq ədalətli dəyərdə tanınan maliyyə alətləri istisna olmaqla, Beynəlxalq Maliyyə Hesabatı Standartlarına ("BMHS") uyğun olaraq ilkin dəyər metoduna əsasən hazırlanmışdır. Hazırkı maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot siyasətləri aşağıda göstərilir. Həmin uçot siyasətləri başqa cür qeyd olunmadığı təqdirdə, təqdim edilən bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir (5-ci Qeydə baxın).

***Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları.*** Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya edilmiş dəyərlə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

*Ədalətli dəyər* qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Fəal bazarda alınıb-satılmayan maliyyə törəmə alətləri və ya digər maliyyə aktivləri və öhdəlikləri üzrə portfel mövcud bazar şəraitində qiymətləndirmə tarixinə bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən müəyyən riskin qəbul edilməsi üçün xalis uzun mövqenin (yəni, aktivin) satılması və ya müəyyən riskin qəbul edilməsi üçün xalis qısa mövqenin (yəni, öhdəliyin) ötürülməsi məqsədilə əldə edilə biləcək qiymət əsasında maliyyə aktivləri və maliyyə öhdəlikləri qrupunun ədalətli dəyərində qiymətləndirilir. Bu, dövri olaraq ədalətli dəyərdə qeydə alınan aktivlərə o şərtlə tətbiq edilir ki, Şirkət (a) müəssisənin risklərin idarə edilməsi və ya investisiya strategiyasına uyğun olaraq məruz qaldığı müəyyən bazar riski (və ya risklərinə) və ya müəyyən kontragentin kredit riskinə əsasən maliyyə aktivləri və maliyyə öhdəlikləri qrupunu idarə edir; (b) həmin prinsipə əsasən maliyyə aktivləri və maliyyə öhdəlikləri qrupu haqqında məlumatı müəssisənin baş rəhbərliyinə təqdim edir; və (c) bazar riskləri, o cümlədən müəssisənin maliyyə aktivləri və maliyyə öhdəlikləri ilə əlaqədar məruz qaldığı müəyən bazar riskinin (və ya risklərinin) müddəti əsasən eyni olur.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir. 22-ci Qeydə baxın.

*İlkin dəyər* alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitlərini və ya onların ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və *əməliyyat xərclərini* ehtiva edir. İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara tətbiq edilir.

## 3 Əsas Uçot Siyasətlərinin Qısa Xülasəsi (davamı)

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

*Amortizasiya edilmiş dəyər* əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

***Maliyyə alətlərinin ilkin tanınması.*** Mənfəət və zərər vasitəsilə ədalətli dəyərdə göstərilən ticarət qiymətli kağızları, derivativlər və sair maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə qeydə alınır. Bütün digər maliyyə alətləri, dövlət və dövlət təşkilatlarından alınmış kreditlər istisna olmaqla, əməliyyat məsrəfləri də daxil olmaqla ədalətli dəyərdə qeydə alınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda yaranan mənfəət və ya zərər qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("müntəzəm" alış və satışlar), Şirkətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar Şirkətin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda qeydə alınır.

***Maliyyə aktivlərinin tanınmasının dayandırılması.*** Şirkət aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Şirkətin maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

***Pul vəsaitləri və onların ekvivalentləri.*** Pul vəsaitləri və onların ekvivalentləri pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin cüzi dəyişməsi kimi riskə məruz qalan qoyuluşlardır. Pul vəsaitləri və onların ekvivalentlərinə ilkin ödəniş müddəti üç aydan az olan banklararası depozitlər daxildir. Verilmə tarixində istifadəsi üç aydan çox müddətə məhdudiyyət qoyulmuş vəsaitlər pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya edilmiş dəyərdə qeydə alınır.

## 3 Əsas Uçot Siyasətlərinin Qısa Xülasəsi (davamı)

***Müştərilərə verilmiş kreditlər.*** Müştərilərə verilmiş kreditlər müəyyən edilmiş və ya müəyyən edilə bilən tarixlərdə ödənilmək şərtilə Şirkət tərəfindən müştərilərə avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Bu zaman Şirkət yaranmış sərbəst surətdə alınıb satıla bilməyən qeyri-derivativ debitor borcları üzrə alqı-satqı əməliyyatı aparmaq niyyətində olmur. Müştərilərə verilmiş kreditlər amortizasiya edilmiş dəyərlə əks etdirilir.

Dəyərsizləşmiş maliyyə aktivləri ilə bağlı şərtlərə yenidən baxılarsa və yenidən baxılmış şərtlər əvvəlki şərtlərdən əhəmiyyətli dərəcədə fərqlənərsə, yeni aktiv ilkin olaraq ədalətli dəyərdə tanınır.

***Amortizasiya edilmiş dəyərlə qeydə alınan maliyyə aktivlərinin dəyərsizləşməsi.*** Dəyərsizləşmə üzrə zərərlər maliyyə aktivinin ilkin tanınmasından sonra baş vermiş bir və ya bir neçə hadisə ("zərər hadisəsi") nəticəsində yarandıqda və bu zərər hadisəsi maliyyə aktivi və ya maliyyə aktivləri qrupu üzrə daxil olacaq pul vəsaitləri hərəkətinin məbləğinə və vaxtına etibarlı şəkildə təxmin edilə bilən təsir göstərdikdə mənfəət və ya zərərdə tanınır. Şirkət əhəmiyyətli olub-olmamasından asılı olmayaraq, fərdi şəkildə qiymətləndirilən maliyyə aktivinin dəyərsizləşməsinə dair obyektiv sübutun olmadığı qənaətinə gələrsə, həmin aktivi analoji kredit riski xüsusiyyətlərinə malik olan maliyyə aktivləri qrupuna daxil edir və onların dəyərsizləşməsini məcmu şəkildə təhlil edir. Maliyyə aktivinin dəyərsizləşməsini müəyyən edərkən Şirkətin nəzərə aldığı əsas amillər həmin aktivin vaxtı keçməsi statusu və hər hansı girov təminatının realizasiya oluna bilməsidir. Dəyərsizləşmə üzrə zərərin baş verməsinə dair obyektiv əlamətlərin mövcud olmasını müəyyən edən əsas meyarlar aşağıda göstərilir:

- hər-hansı ödənişin gecikdirilməsi və bu zaman gecikdirilmiş ödənişin hesablaşma sistemlərindəki gecikmə ilə izah edilə bilməməsi;
- borcalanın əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi və bunun Şirkətin borcalan haqqında maliyyə məlumatları ilə təsdiqlənməsi;
- borcalanın müflisləşməsi və ya onun maliyyə strukturunun yenidən təşkil edilməsi;
- borcalana təsir göstərən milli və ya yerli iqtisadi şəraitin dəyişməsi nəticəsində onun ödəniş statusunda mənfi dəyişikliklərin baş verməsi; və ya
- girovun dəyərinin bazar şərtlərinin pisləşməsi nəticəsində əhəmiyyətli dərəcədə aşağı düşməsi.

Dəyərsizləşmənin məcmu şəkildə qiymətləndirilməsi məqsədilə maliyyə aktivləri kredit riski üzrə oxşar xüsusiyyətlərə görə qruplaşdırılır. Həmin xüsusiyyətlər qiymətləndirilən aktivlərin müqavilə şərtlərinə əsasən borcalanların ödəmə qabiliyyətini təsdiqləyir ki, bu da belə aktivlərlə bağlı gələcək pul vəsaitlərinin təxmin edilməsi üçün uyğundur.

Dəyərsizləşməyə qarşı məcmu şəkildə qiymətləndirilən maliyyə aktivləri qrupundakı pul vəsaitlərinin gələcək hərəkəti, həmin aktivlərlə bağlı müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə, keçmişdə baş vermiş zərər halları nəticəsində yaranacaq vaxtı keçmiş borcların həcminə dair rəhbərlikdə mövcud olan statistikaya və vaxtı keçmiş borcların geri qaytarılması nailiyyətinə əsasən müəyyən edilir. Keçmiş dövrlərə təsir göstərməyən cari şəraitin təsirini əks etdirmək və cari dövrdə mövcud olmayan keçmiş hadisələrin təsirini aradan qaldırmaq məqsədilə, keçmiş illərin statistikası müşahidə edilə bilən cari məlumatlara əsasən tənzimlənir.

Amortizasiya edilmiş dəyərlə əks etdirilən dəyərsizləşmiş maliyyə aktivi ilə bağlı şərtlərə yenidən baxılarsa və ya bu şərtlər borcalanın və ya emitentin maliyyə vəziyyətindəki çətinliklərə görə dəyişərsə, dəyərsizləşmənin uçotu şərtlərin dəyişməsindən əvvəlki effektiv faiz dərəcəsinə əsaslanır. Şərtlərinə yenidən baxılmış aktivin tanınmasının dayandırılması zamanı risk və faydalar əhəmiyyətli dərəcədə dəyişərsə, yeni aktiv ədalətli dəyərlə tanınır. Bu, adətən ilkin və yeni gözlənilən nağd pul axınlarının cari dəyərləri arasındakı fərq əhəmiyyətli olduqda müşahidə olunur.

Aktivin balans dəyərini effektiv faiz dərəcəsilə diskont edilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinə (kreditlər üzrə baş verməmiş gələcək zərərlər istisna olmaqla) bərabərləşdirmək üçün aktivlər üçün dəyərsizləşmə üzrə zərərlər ehtiyat hesablarında qeydə alınır. Girov qoyulmuş maliyyə aktivi üzrə təxmin edilən gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinin hesablanması girovun alınması və satılması ilə bağlı məsrəflər çıxılmaqla, girov nəticəsində yarana bilən (girovun olub-olmaması ehtimal edildikdə) pul vəsaitlərinin hərəkətini əks etdirir.

Dəyərsizləşmə üzrə zərərin məbləği sonrakı dövrdə baş vermiş hadisəyə görə azalarsa və həmin azalma obyektiv olaraq zərərin qeydə alınmasından sonra baş vermiş hadisəyə (məsələn, borcalanın kredit reytinqinin artması kimi) aid edilərsə, əvvəl qeydə alınmış dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərər hesabına yaradılmış ehtiyata düzəliş etməklə qaytarılır.

## 3 Əsas Uçot Siyasətlərinin Qısa Xülasəsi (davamı)

Aktivlər qaytarıla bilmədikdə, onlar aktivin və ya onun hissəsinin bərpa olunması üçün bütün zəruri prosedurların tamamlanmasından və zərərin məbləğinin müəyyən edilməsindən sonra müvafiq zərər ehtiyatından silinir. Əvvəllər silinmiş məbləğlərin qaytarılması il üzrə mənfəət və ya zərərdə dəyərsizləşmə üzrə zərərin azaldılması kimi uçota alınır.

***Əmlak və avadanlıqlar.*** Əmlak və avadanlıqlar hər hansı yığılmış amortizasiya və ehtiyac yaranarsa, dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla ilkin dəyərdə uçota alınır.

Kiçik həcmli təmir və xidmət xərcləri çəkildiyi dövrdə xərcə silinir. Əmlak və avadanlıqların əsas hissələrinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Rəhbərlik hər bir hesabat dövrünün sonunda əmlak və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri onun satışı üzrə məsrəflər çıxılmaqla, ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Aktivin balans dəyəri onun bərpa edilə bilən dəyərinə qədər azaldılır və dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərərdə tanınır. Aktivin istifadə dəyərini və ya satış üzrə məsrəflər çıxılmaqla ədalətli dəyərini müəyyən etmək üçün istifadə edilmiş təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə, əvvəlki illərdə tanınmış dəyərsizləşmə zərəri bərpa edilir.

Əmlak və avadanlıqların silinməsindən yaranan mənfəət və ya zərər, gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və il üzrə mənfəət və ya zərərə daxil edilir (sair əməliyyat gəlirləri və ya xərclərinin tərkibində).

***Amortizasiya.*** Əmlak üzrə amortizasiya düz xətt metoduna əsasən, yəni aşağıda göstərildiyi kimi, əsas vəsaitlərin təxmini faydalı istifadə müddəti ərzində aktivlərin ilkin dəyərini və ya yenidən qiymətləndirilmiş dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır:

| | Faydalı istifadə müddəti |
|---|---|
| Binalar | 25 il |
| Kompüter və avadanlıqlar | 5 il |
| Nəqliyyat vasitələri | 5 il |

Aktiv faydalı istifadə müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı ehtimal olunan xərclər çıxıldıqdan sonra, Şirkət tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğ aktivin qalıq dəyəridir. Əgər Şirkət aktivlərini fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözləyərsə, aktivin qalıq dəyəri sıfıra bərabər olur. Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddəti hər hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda dəyişdirilir.

***Qeyri-maddi aktivlər.*** Şirkətin qeyri-maddi aktivləri müəyyən edilmiş faydalı istifadə müddətinə malik olub əsasən kapitallaşdırılmış proqram təminatından ibarətdir.

Proqram təminatı üzrə əldə edilmiş lisenziyalar onların alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır. Proqram təminatı ilə əlaqədar bütün digər xərclər çəkildiyi zaman xərcə silinir. Kapitallaşdırılmış proqram təminatı təxmin edilən faydalı istifadə müddəti (5-10 il) ərzində düz xətt metoduna əsasən amortizasiya olunur.

***Əməliyyat lizinqi.*** Şirkət lizinq obyektinin mülkiyyət hüququ ilə bağlı risk və faydaların lizinq verəndən Şirkətə ötürülməsini nəzərdə tutmayan lizinq müqaviləsi üzrə lizinq alan qismində çıxış etdiyi hallarda, ümumi lizinq ödənişləri lizinq müddəti ərzində düz xətt metoduna əsasən mənfəət və ya zərərə aid edilir.

Aktivlər əməliyyat lizinqinə verildikdə alınacaq lizinq ödənişləri lizinq müddəti ərzində düz xətt metodundan istifadə etməklə icarə gəliri kimi tanınır.

***Banklardan alınmış kreditlər.*** Banklardan alınmış kreditlər rezident və qeyri-rezident banklardan, eləcə də digər maliyyə institutlarından müəyyən edilmiş ödəmə müddətləri və sabit və ya dəyişkən faiz dərəcəsi ilə cəlb edilmiş kreditlər daxildir. Banklardan alınmış kreditlər amortizasiya edilmiş dəyərlə qeydə alınır.

***Mənfəət vergisi.*** Hazırkı maliyyə hesabatlarında əks etdirilən mənfəət vergisi Azərbaycan Respublikasının qüvvədə olan və ya hesabat dövrünün sonuna qüvvəyə minmiş qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri bilavasitə sair məcmu gəlirlərdə qeydə alınan əməliyyatlar istisna olmaqla, məcmu gəlirlərdə qeydə alınır.

## 3 Əsas Uçot Siyasətlərinin Qısa Xülasəsi (davamı)

Cari il üzrə mənfəət vergisi cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (biznes birləşməsi halları istisna olmaqla). Təxirə salınmış vergi qalıqları, qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərərləri müvəqqəti fərqlərin geri qaytarılması, kifayət qədər vergi tutulan gələcək gəlirlərin yaranması və bu gəlirlər üzrə çıxılmaların istifadə edilməsi ehtimalını nəzərə alaraq tanınır.

***Qeyri-müəyyən vergi mövqeləri.*** Şirkətin qeyri-müəyyən vergi mövqeləri rəhbərlik tərəfindən hər bir hesabat dövrünün sonunda yenidən qiymətləndirilir. Rəhbərlik Şirkətin vergi mövqeyinə vergi orqanları tərəfindən etiraz edildiyi halda, əlavə vergi öhdəliklərinin yaranmasını ehtimal etdikdə, vergi öhdəlikləri nəzərə alınmır. Bu cür qiymətləndirmə qüvvədə olan və ya hesabat dövrünün sonuna qüvvəyə minmiş vergi qanunvericiliyinin təfsirinə və bu məsələlərə dair hər hansı məhkəmə və ya digər qurumların məlum qərarlarına əsasən aparılır. Mənfəət vergisi istisna olmaqla, cərimələr, penyalar və vergilər üzrə öhdəliklər hesabat dövrünün sonunda öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan xərclərə dair rəhbərliyin ən yaxşı təxminləri əsasında tanınır.

***Gəlir və xərclərin uçotu.*** Bütün borc alətləri üzrə faiz gəlirləri və xərcləri effektiv faiz metoduna əsasən hesablama metodu ilə mənfəət və ya zərərdə qeydə alınır. Bu metoda əsasən, faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Effektiv faiz dərəcəsinə aid olan komissiya haqlarına maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə öhdəliyinin (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin təqdim edilməsi şərtlərinin razılaşdırılması və sövdələşmə sənədlərinin hazırlanması haqları) buraxılması ilə əlaqədar alınmış və ya ödənilmiş komissiya haqları daxildir. Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Şirkət tərəfindən alınmış komissiya haqları, Şirkətin xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir. Şirkət kreditlərin verilməsi üzrə öhdəlikləri mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə qeydə alınan maliyyə öhdəlikləri kimi təsnifləşdirmir.

Kreditlərin və digər borc alətlərinin vaxtında qaytarılması ilə bağlı şübhə yarandıqda, onlar bərpa edilə bilən dəyərə qədər azaldılır və dəyərsizləşməni müəyyən etmək üçün gələcək pul vəsaitləri hərəkətinin diskontlaşdırılması zamanı istifadə edilən effektiv faiz dərəcəsi əsasında faiz gəlirləri hesablanır.

Bütün digər komissiya gəlirləri və sair gəlirlər adətən tamamlanma dərəcəsindən asılı olaraq hesablama metodu ilə qeydə alınır. Tamamlanma dərəcəsi faktiki göstərilmiş xidmətlərin ümumi göstərilməli olan xidmətlərə nisbəti kimi müəyyən edilir.

***Xarici valyutanın çevrilməsi.*** Şirkətin funksional valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutasıdır. Şirkətin funksional və təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır.

Monetar aktiv və öhdəliklər ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən Şirkətin funksional valyutasına çevrilir. Belə əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin ARMB-nin ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə Şirkətin funksional valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər il üzrə mənfəət və ya zərərdə (xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərər çıxılmaqla gəlir kimi) tanınır. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr, o cümlədən pay alətləri ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnələrdən istifadə etməklə funksional valyutaya çevrilir.

## 3 Əsas Uçot Siyasətlərinin Qısa Xülasəsi (davamı)

Məzənnə dəyişikliklərinin pay qiymətli kağızlarının ədalətli dəyərinə təsiri ədalətli dəyərin dəyişməsindən yaranan gəlir və ya zərərin bir hissəsi kimi əks etdirilir.

31 dekabr 2016-cı il tarixinə ABŞ dolları ilə ifadə olunmuş xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan rəsmi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.7707 AZN (2015: 1 ABŞ dolları = 1.5594 AZN). İl üzrə ABŞ dolları ilə ifadə olunmuş gəlir və xərclərin çevrilməsində istifadə olunan orta rəsmi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.5973 AZN (2015: 1 ABŞ dolları = 1.0285 AZN).

***Əvəzləşdirmə.*** Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır (i) adi fəaliyyət gedişində (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

***İşçi heyəti ilə bağlı xərclər və müvafiq ayırmalar.*** Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Şirkətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır. Şirkətin yerli qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş məcburi sosial sığorta haqlarından başqa pensiya və analoji ödənişləri həyata keçirmək üçün hər hansı hüquqi və ya işgüzar praktikadan yaranan öhdəliyi yoxdur.

## 4 Uçot Siyasətinin Tətbiqi Zamanı Əhəmiyyətli Ehtimallar və Mülahizələr

Şirkət növbəti maliyyə ili ərzində maliyyə hesabatlarında uçota alınan məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçinin peşəkar ehtimallar və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

***Kreditlər üzrə dəyərsizləşmə zərərləri.*** Şirkət müntəzəm olaraq kredit portfeli üzrə dəyərsizləşmənin mövcudluğunu müəyyən etmək üçün onu təhlil edir. Dəyərsizləşmə zərərinin il üzrə mənfəət və ya zərərdə əks etdirilməsini müəyyən edərkən, Şirkət kredit portfelində fərdi kreditin dəyərində azalmanın müşahidə edilməsindən əvvəl kredit portfeli üzrə pul vəsaitlərinin təxmin edilən hərəkətində ölçülə bilən azalmanı əks etdirən nəzərə çarpan əlamətlərin mövcudluğunu müəyyən etmək üçün peşəkar mülahizələr irəli sürür. Bu göstəricilərə Şirkətin borcalanların ödəniş statusunda və ya Şirkətin aktivləri üzrə öhdəliklərin yerinə yetirilməməsi ilə əlaqədar ölkə səviyyəsində və ya yerli iqtisadi şərtlərdə mənfi dəyişikliyin olduğunu əks etdirən müşahidə edilə bilən məlumatlar daxildir. Rəhbərlik gələcək pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması üçün istifadə edilən kredit portfelindəki aktivlər ilə analoji kredit riskinə və dəyərsizləşmə üzrə obyektiv əlamətlərə malik aktivlər ilə əlaqədar əvvəlki ilin zərərləri haqqında məlumata əsaslanan təxminlər tətbiq edir. Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

***Təxirə salınmış vergi aktivinin uçotu.*** Tanınmış təxirə salınmış xalis vergi aktivi vergiyə cəlb olunan gəlirdən gələcək çıxılmalar vasitəsilə əldə olunan mənfəət vergisi məbləğlərindən ibarətdir və maliyyə vəziyyəti haqqında hesabatda qeydə alınır. Təxirə salınmış mənfəət vergisi aktivi müvafiq vergi faydasının realizasiya oluna biləcəyi zaman qeydə alınır. Vergiyə cəlb olunan gələcək mənfəətin və gələcəkdə yaranması ehtimal edilən vergi faydası məbləğinin müəyyən edilməsi rəhbərlik tərəfindən hazırlanmış ortamüddətli biznes planına və onun ekstrapolyasiya nəticələrinə əsaslanır. Biznes-plan rəhbərliyin şəraitə adekvat olan təxminlərinə əsaslanır.

***Maliyyə alətlərinin qiymətləndirilməsi.*** 22-ci Qeyddə göstərildiyi kimi, Şirkət müəyyən maliyyə alətlərinin ədalətli dəyərini hesablamaq üçün müşahidə edilə bilən bazar məlumatlarına əsaslanmayan ilkin məlumatları özündə əks etdirən qiymətləndirmə üsullarından istifadə edir. Şirkətin rəhbərliyi hesab edir ki, istifadə olunan seçilmiş qiymətləndirmə üsulları və fərziyyələr maliyyə alətlərinin ədalətli dəyərinin müəyyən edilməsi üçün məqsədəuyğundur.

## 5 Yeni və ya Yenidən İşlənmiş Standartların və onlara dair Şərhlərin Tətbiqi

Aşağıdakı yenidən işlənmiş standartlar 1 yanvar 2016-cı il tarixindən qüvvəyə minmiş, lakin Şirkətə əhəmiyyətli dərəcədə təsir göstərməmişdir:

- BMHS 14, Tənzimlənən tariflər üzrə həyata keçirilən fəaliyyət ilə bağlı təxirə salınmış ödənişlər (2014-cü ilin yanvar ayında dərc edilmişdir və 1 yanvar 2016-cı il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- Birgə fəaliyyətdə iştirak paylarının əldə edilməsi üzrə əməliyyatların uçotu – BMHS 11-ə Dəyişikliklər (6 may 2014-cü il tarixində dərc edilmişdir və 1 yanvar 2016-cı il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- Amortizasiyanın hesablanması üsulları ilə bağlı açıqlama - BMS 16 və BMS 38-ə dəyişikliklər (12 may 2014-cü il tarixində dərc edilmişdir və 1 yanvar 2016-cı il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- Kənd təsərrüfatı: Məhsul verən bitkilər – BMS 16 və BMS 41-ə dəyişikliklər (30 iyun 2014-cü il tarixində dərc edilmişdir və 1 yanvar 2016-cı il tarixində başlayan illik dövrlər üçün qüvvəyə minir).
- Ayrıca maliyyə hesabatlarında iştirak payı metodu – BMS 27-yə dəyişikliklər (12 avqust 2014-cü il tarixində dərc edilmişdir və 1 yanvar 2016-cı il tarixində başlayan illik dövrlər üçün qüvvəyə minir).
- 2014-cü ildə dərc edilmiş BMHS-lərin illik təkmilləşdirilməsi (25 sentyabr 2014-cü il tarixində dərc edilmişdir və 1 yanvar 2016-cı il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- Məlumatların açıqlanması – BMS 1-ə dəyişikliklər (2014-cü ilin dekabr ayında dərc edilmişdir və 1 yanvar 2016-cı il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- İnvestisiya şirkətləri üçün konsolidasiya tələbi ilə bağlı istisnanın tətbiqi - BMHS 10, BMHS 12 və BMS 28-ə dəyişikliklər (2014-cü ilin dekabr ayında dərc edilmişdir və 1 yanvar 2016-cı il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).

## 6 Yeni Uçot Qaydaları

1 yanvar 2017-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün məcburi xarakter daşıyan və Şirkət tərəfindən vaxtından əvvəl tətbiq edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur.

***BMHS 9 "Maliyyə Alətləri: Təsnifləşdirmə və Qiymətləndirmə" (2014-cü ilin iyul ayında dəyişiklik edilmişdir və 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Yeni standartın əsas fərqləri aşağıda göstərilir:

- Maliyyə aktivləri üç qiymətləndirmə kateqoriyasına təsnifləşdirilməlidir: ilkin tanınmadan sonra amortizasiya edilmiş dəyərdə qiymətləndirilən aktivlər, ilkin tanınmadan sonra sair məcmu gəlirlərin tərkibində ədalətli dəyərdə qiymətləndirilən aktivlər və mənfəət və ya zərərin tərkibində ədalətli dəyərdə qiymətləndirilən aktivlər.
- Təsnifləşdirmə maliyyə aktivlərinin idarə edilməsi üzrə müəssisənin biznes modelindən və müqavilədə nəzərdə tutulan nağd pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olub-olmamasından asılıdır. Əgər borc aləti müvafiq vəsaitin əldə edilməsi üçün saxlanılırsa və yalnız əsas məbləğin və faizlərin ödənilməsi tələbinə də uyğun gəlirsə, amortizasiya edilmiş dəyərdə qeydə alına bilər. Yalnız əsas məbləğin və faizlərin ödənilməsi tələbinə uyğun gələn borc alətləri həm nağd pul axınlarının əldə edilməsi, həm də satış üçün nəzərdə tutulan aktivlərdən ibarət portfelin tərkibindədirsə, o zaman həmin alətlər sair məcmu gəlirlərin tərkibində ədalətli dəyərlə qiymətləndirilən aktivlər kimi təsnifləşdirilə bilər. Tərkibində nağd pul axınları olmayan və yalnız əsas məbləğin və faizlərin ödənilməsi tələbinə uyğun gələn maliyyə aktivləri mənfəət və ya zərərin tərkibində ədalətli dəyərdə qiymətlən dirilməlidir (məsələn, törəmə maliyyə alətləri). Qeyri-törəmə alətlərin tərkibində olan törəmə maliyyə alətləri müvafiq maliyyə aktivlərində ayrıca göstərilmir və yalnız əsas məbləğin və faizlərin ödənilməsi tələbinin şərtlərinə uyğunluq qiymətləndirilərkən nəzərə alınır.
- Pay alətlərinə investisiyalar hər zaman ədalətli dəyərdə qiymətləndirilir. Lakin pay aləti satış üçün nəzərdə tutulmadıqda, rəhbərlik ədalətli dəyərdəki dəyişiklikləri sair məcmu gəlirlərin tərkibində göstərilməsi ilə bağlı dəyişilməz qərar qəbul edə bilər. Əgər pay aləti satış üçün nəzərdə tutulursa, ədalətli dəyərdəki dəyişikliklər mənfəət və ya zərərdə göstərilməlidir.

## 6 Yeni Uçot Qaydaları (davamı)

- Maliyyə öhdəliklərinin təsnifləşdirilməsi və qiymətləndirilməsi ilə bağlı BMS 39-un əksər tələbləri dəyişdirilmədən BMHS 9-a köçürülmüşdür. Əsas fərq ondan ibarətdir ki, müəssisə mənfəət və ya zərərdə ədalətli dəyərlə qeydə alınan maliyyə öhdəliklərinin kredit risklərindəki dəyişiklikləri effektini sair məcmu gəlirlərin tərkibində açıqlamalıdır.
- BMHS 9 dəyərsizləşmə üzrə zərərlərin tanınması üçün yeni model təqdim edir: gözlənilən kredit zərərləri (GKZ) modeli. Bu model maliyyə aktivlərinin ilkin tanınmasından etibarən kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanan "üç mərhələli" yanaşmanı nəzərdə tutur. Yeni qaydaya əsasən dəyərsizləşməmiş maliyyə aktivlərinin ilkin tanınması zamanı müəssisə 12 aylıq GKZ-yə (ticarət debitor borcları üçün isə qüvvədə olduğu bütün dövr ərzində GKZ-yə) bərabər olan zərərləri birbaşa tanımalıdır. Kredit riski əhəmiyyətli dərəcədə artarsa, dəyərsizləşmə 12 aylıq GKZ deyil, kreditin qüvvədə olduğu bütöv müddətə uyğun GKZ əsasında qiymətlən dirilir. Bu modelə lizinq və debitor borcları üzrə dəyərsizləşmənin qiymətləndirilməsi üçün sadələşdirilmiş təlimatlar da daxildir.
- Hecinq uçotunu risklərin idarə edilməsi ilə daha sıx əlaqələndirmək üçün uçot ilə bağlı tələblərə dəyişikliklər edilmişdir. Hazırda standart makrohecinq hallarının uçotunu nəzərdə tutmadığına görə, o, şirkətlərə BMHS 9-da təsvir edilən hecinqin uçotu tələblərini tətbiq etmək və BMS 39-un bütün heclərə tətbiqini davam etdirmək kimi uçot siyasəti arasında seçim imkanı verir.

Hazırda Şirkət yeni standartın onun maliyyə hesabatlarına təsirini qiymətləndirir.

***BMHS 15 "Müştərilər ilə müqavilələrdən yaranan gəlir" (28 may 2014-cü il tarixində dərc edilmişdir və 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).*** Yeni standartın təqdim etdiyi əsas prinsipə görə gəlir mal və xidmətlər müştəriyə ötürüldüyü zaman əməliyyat qiyməti ilə tanınmalıdır. Birlikdə satılan mal və xidmətlərdən yaranan gəlir hər bir mal və ya xidmət üzrə ayrıca tanınmalı, təklif edilən endirim və güzəştlər müvafiq olaraq həmin mal və xidmətlər üzrə bölüşdürülməlidir. Ödəniş hər hansı səbəbə görə dəyişərsə və bu zaman məbləğin dəyişmə riski əhəmiyyətli olmazsa, məbləğin minimal hissəsi tanınmalıdır. Müştərilər ilə müqavilələrin təmin edilməsi ilə bağlı xərclər kapitallaşdırılmalı və müqavilədən faydaların əldə edildiyi müddət ərzində amortizasiya edilməlidir.

Qəbul edildikdən sonra aşağıdakı digər yeni uçot qaydalarının Şirkətin maliyyə hesabatlarına əhəmiyyətli təsiri gözlənilmir:

- İnvestor tərəfindən aktivlərin asılı və ya birgə müəssisələrə satılması və ya ötürülməsi - BMHS 10 və BMS 28-ə dəyişikliklər (11 sentyabr 2014-cü il tarixində dərc edilmişdir və BMUSŞ tərəfindən müəyyən ediləcək tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- Reallaşdırılmamış zərərlər üzrə təxirə salınmış vergi aktivlərinin tanınması, BMS 12-yə dəyişikliklər (19 yanvar 2016-cı il tarixində dərc edilmişdir və 1 yanvar 2017-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- "Müştərilər ilə müqavilələrdən yaranan gəlir", BMHS 15-ə dəyişikliklər (12 aprel 2016-cı il tarixində dərc edilmişdir və 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- Səhm əsasında ödənişlər, BMHS 2-yə dəyişikliklər (20 iyun 2016-cı il tarixində dərc edilmişdir və 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- Sığorta Müqavilələri, BMHS 4-ə dəyişikliklər (12 sentyabr 2016-cı il tarixində dərc edilmişdir və 1 yanvar 2018-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).

Yuxarıda başqa cür nəzərdə tutulmadığı hallarda, yeni standartlar və şərhlərin Şirkətin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

## 7 Pul Vəsaitləri və onların Ekvivalentləri

| *Azərbaycan manatı ilə* | 31 dekabr 2016 | 31 dekabr 2015 |
|---|---|---|
| Nağd pul | 11,454 | 99,452 |
| Tələb edilənədək bank qalıqları | 89,192 | 19,414 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **100,646** | **118,866** |

31 dekabr 2016 və 2015-ci il tarixlərinə nağd pul çıxılmaqla, Şirkətin bütün pul vəsaitləri və onların ekvivalentləri rezident banklarda yerləşdirilmişdir.

31 dekabr 2016-cı il tarixinə "Standard & Poor's" reytinq agentliyinin reytinqlərinə əsasən pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan manatı ilə* | 31 dekabr 2016 |
|---|---|
| *Vaxtı keçməmiş və dəyərsizləşməmiş* | |
| BB+ | 46,347 |
| BB- | 42,775 |
| B+ | 70 |
| **Nağd pul çıxılmaqla, cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **89,192** |

31 dekabr 2015-ci il tarixinə pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan manatı ilə* | 31 dekabr 2015 |
|---|---|
| *Vaxtı keçməmiş və dəyərsizləşməmiş* | |
| Reytinqsiz banklarda | 9,871 |
| BBB- | 8,563 |
| BBB | 980 |
| **Nağd pul çıxılmaqla, cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **19,414** |

31 dekabr 2016-cı il tarixinə "Standard & Poor's" beynəlxalq reytinq agentliyi Azərbaycan Respublikasına BB+ (2015 : BBB-) reytinqi təyin etmişdir.

Pul vəsaitləri və onların ekvivalentlərinin coğrafi, valyuta, eləcə də ödəmə müddətləri və faiz dərəcələri üzrə təhlili 19-cu Qeyddə göstərilir.

## 8 Müştərilərə Verilmiş Kreditlər

| *Azərbaycan manatı ilə* | 31 dekabr 2016 | 31 dekabr 2015 |
|---|---|---|
| İstehlak kreditləri | 14,563,573 | 16,597,882 |
| Digər kreditlər | 1,488,773 | 572,402 |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat çıxılmaqla | (950,147) | (1,111,638) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **15,102,199** | **16,058,646** |

## 8 Müştərilərə Verilmiş Kreditlər (davamı)

2016-cı il ərzində kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatın hərəkəti aşağıdakı kimi olmuşdur:

| *Azərbaycan manatı ilə* | İstehlak kreditləri | Digər kreditlər | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2016-cı il tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **1,099,309** | **12,329** | **1,111,638** |
| İl ərzində ehtiyatın (yaradılması)/bərpası | (238,587) | 102,902 | (135,685) |
| Silinmiş kreditlər | (25,806) | - | (25,806) |
| **31 dekabr 2016-cı il tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **834,916** | **115,231** | **950,147** |

2015-ci il ərzində kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatın hərəkəti aşağıdakı kimi olmuşdur:

| *Azərbaycan manatı ilə* | İstehlak kreditləri | Digər kreditlər | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2015-ci il tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **511,743** | **5,276** | **517,019** |
| İl ərzində ehtiyatın yaradılması | 587,566 | 7,053 | 594,619 |
| **31 dekabr 2015-ci il tarixinə dəyərsizləşmə üzrə ehtiyat** | **1,099,309** | **12,329** | **1,111,638** |

31 dekabr 2016-cı il tarixinə kreditlərin keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan manatı ilə* | İstehlak kreditləri | Digər kreditlər | Cəmi |
|---|---|---|---|
| *Vaxtı keçməmiş və dəyərsizləşməmiş* | | | |
| Fiziki şəxslərə verilmiş kreditlər | 13,367,919 | 1,266,876 | 14,634,795 |
| **Cəmi vaxtı keçməmiş və dəyərsizləşməmiş** | **13,367,919** | **1,266,876** | **14,634,795** |
| *Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş* | | | |
| - ödənişi 30 gündən az gecikdirilmiş | 287,642 | 36,229 | 323,871 |
| - ödənişi 30-90 gün gecikdirilmiş | 364 | 404 | 768 |
| **Cəmi vaxtı keçmiş, lakin dəyərsizləşməmiş** | **288,006** | **36,633** | **324,639** |
| *Fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ)* | | | |
| - ödənişi 30-90 gün gecikdirilmiş | 20,972 | 13,743 | 34,715 |
| - ödənişi 91-180 gün gecikdirilmiş | 24,805 | 18,003 | 42,808 |
| - ödənişi 181-360 gün gecikdirilmiş | 77,811 | 90,429 | 168,240 |
| - ödənişi 360 gündən artıq gecikdirilmiş | 784,060 | 63,089 | 847,149 |
| **Cəmi fərdi şəkildə dəyərsizləşmiş kreditlər** | **907,648** | **185,264** | **1,092,912** |
| **Dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla** | **(834,916)** | **(115,231)** | **(950,147)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **13,728,657** | **1,373,542** | **15,102,199** |

## 8 Müştərilərə Verilmiş Kreditlər (davamı)

31 dekabr 2015-ci il tarixinə kreditlərin keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

| *Azərbaycan manatı ilə* | **İstehlak kreditləri** | **Digər kreditlər** | **Cəmi** |
|---|---|---|---|
| *Vaxtı keçməmiş və dəyərsizləşməmiş* | | | |
| Fiziki şəxslərə verilmiş kreditlər | 14,848,310 | 556,383 | 15,404,693 |
| **Cəmi vaxtı keçməmiş və dəyərsizləşməmiş** | **14,848,310** | **556,383** | **15,404,693** |
| *Fərdi şəkildə dəyərsizləşmiş kreditlər (ümumi məbləğ)* | | | |
| - ödənişi 30 gündən az gecikdirilmiş | 584,136 | 5,430 | 589,566 |
| - ödənişi 30-90 gün gecikdirilmiş | 187,199 | 1,161 | 188,360 |
| - ödənişi 91-180 gün gecikdirilmiş | 208,662 | 3,148 | 211,810 |
| - ödənişi 181-360 gün gecikdirilmiş | 148,636 | 5,798 | 154,434 |
| - ödənişi 360 gündən artıq gecikdirilmiş | 620,939 | 482 | 621,421 |
| **Cəmi fərdi şəkildə dəyərsizləşmiş kreditlər** | **1,749,572** | **16,019** | **1,765,591** |
| **Dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla** | **(1,099,309)** | **(12,329)** | **(1,111,638)** |
| **Cəmi müştərilərə verilmiş kreditlər və avanslar** | **15,498,573** | **560,073** | **16,058,646** |

Şirkət BMS 39, Maliyyə Alətləri: Tanınması və Qiymətləndirilməsi Standartında nəzərdə tutulan portfel üzrə ehtiyatın yaradılması metodologiyasını tətbiq etmiş və baş vermiş, lakin hesabat dövrünün sonuna heç bir fərdi kredit üzrə spesifik olaraq müəyyən edilməmiş dəyərsizləşmə zərərləri üçün ehtiyat yaratmışdır. Şirkətin siyasəti kreditin dəyərsizləşməsinə dair spesifik olaraq obyektiv dəlil müəyyən edilməyənə qədər hər bir krediti "vaxtı keçməmiş və dəyərsizləşməmiş" kateqoriyasına təsnifləşdirməkdir. Bu siyasət və portfelin dəyərsizləşməsi metodologiyasının tətbiqi ilə əlaqədar olaraq dəyərsizləşmə üzrə ehtiyat fərdi şəkildə dəyərsizləşmiş kreditlərin ümumi məbləğindən artıq olmuşdur. Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat kollektiv və fərdi kreditlər üçün yaradılmışdır.

Kreditin dəyərsizləşməsini müəyyən edərkən Şirkətin nəzərə aldığı əsas amillər onun vaxtının keçməsi statusu və müvafiq girov təminatının (əgər varsa) dəyərini realizasiya etmək imkanıdır. Bunun əsasında yuxarıdakı cədvəldə fərdi şəkildə dəyərsizləşmiş kreditlərin ödəmə müddətləri üzrə təhlili göstərilir.

Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kreditlərə əsasən təminatlı kreditlər daxildir. Təminatın ədalətli dəyəri gecikdirilmiş faiz ödənişləri və əsas məbləğin ödənilməsinə kifayət edir. Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş kimi göstərilən məbləğlər kreditin yalnız ayrı-ayrı ödənişlərinin vaxtı keçmiş məbləğini deyil, bu cür kreditlərin bütöv qalığını əks etdirir.

Təminatın maliyyə təsiri təminatın dəyərini aşağıdakı aktivlər üçün ayrıca olaraq açıqlamaqla göstərilir: (i) girov təminatı və kreditin keyfiyyətini yaxşılaşdıran digər tədbirləri aktivin balans dəyərinə bərabər və ya ondan artıq olan aktivlər ("dəyərindən artıq təmin edilmiş aktivlər") və (ii) girov təminatı və kreditin keyfiyyətini yaxşılaşdıran digər tədbirləri aktivin balans dəyərindən az olan aktivlər ("kifayət qədər təmin edilməmiş aktivlər").

31 dekabr 2016-cı il tarixinə təminatın effekti aşağıda göstərilir:

| | **Dəyərindən artıq təmin edilmiş aktivlər** | | **Kifayət qədər təmin edilməmiş aktivlər** | |
|---|---|---|---|---|
| *Azərbaycan manatı ilə* | **Aktivlərin balans dəyəri** | **Təminatın ədalətli dəyəri** | **Aktivlərin balans dəyəri** | **Təminatın ədalətli dəyəri** |
| İstehlak kreditləri | 12,717,506 | 25,429,991 | 1,011,151 | 1,001,232 |
| Digər kreditlər | 778,052 | 1,950,788 | 595,490 | 51,950 |

## 8 Müştərilərə Verilmiş Kreditlər (davamı)

31 dekabr 2015-ci il tarixinə təminatın effekti aşağıda göstərilir:

| *Azərbaycan manatı ilə* | Dəyərindən artıq təmin edilmiş aktivlər | | Kifayət qədər təmin edilməmiş aktivlər | |
|---|---|---|---|---|
| | Aktivlərin balans dəyəri | Təminatın ədalətli dəyəri | Aktivlərin balans dəyəri | Təminatın ədalətli dəyəri |
| İstehlak kreditləri | 12,983,655 | 28,643,082 | 917,366 | 826,253 |
| Digər kreditlər | 1,729,054 | 4,576,907 | 428,571 | 159,467 |

Müştərilərə verilmiş kreditlərin hər bir kateqoriyasının təxmin edilən ədalətli dəyəri haqqında məlumat üçün 22-ci Qeydə baxın. Müştərilərə verilmiş kreditlərin faiz dərəcəsi üzrə təhlili 19-cu Qeyddə göstərilir. Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat 24-cü Qeyddə açıqlanır.

## 9 Əmlak, Avadanlıq və Qeyri-Maddi Aktivlər

| *Azərbaycan manatı ilə* | Binalar | Kompüter və avadanlıqlar | Nəqliyyat vasitələri | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|
| 1 yanvar 2015-ci il tarixinə ilkin dəyər | 6,500,000 | 26,576 | 42,800 | 3,225 | 6,572,601 |
| Yığılmış amortizasiya | (493,489) | (6,804) | (17,944) | (517) | (518,754) |
| **1 yanvar 2015-ci il tarixinə balans dəyəri** | **6,006,511** | **19,772** | **24,856** | **2,708** | **6,053,847** |
| Əlavələr | - | 8,123 | - | - | 8,123 |
| Silinmələr | - | - | (8,880) | - | (8,880) |
| Amortizasiya xərci | (255,535) | (5,996) | (5,600) | (324) | (267,455) |
| **31 dekabr 2015-ci il tarixinə balans dəyəri** | **5,750,976** | **21,899** | **10,376** | **2,384** | **5,785,635** |
| 1 yanvar 2016-cı il tarixinə ilkin dəyər | 6,500,000 | 34,699 | 33,920 | 3,225 | 6,571,844 |
| Yığılmış amortizasiya | (749,024) | (12,800) | (23,544) | (841) | (786,209) |
| **1 yanvar 2016-cı il tarixinə balans dəyəri** | **5,750,976** | **21,899** | **10,376** | **2,384** | **5,785,635** |
| Əlavələr | - | 500,237 | - | 25,703 | 525,940 |
| Silinmələr | - | (2,337) | - | - | (2,337) |
| Amortizasiya xərci | (260,712) | (66,056) | (5,615) | (1,786) | (334,169) |
| Silinmiş aktivlər üzrə yığılmış amortizasiya | - | 194 | - | - | 194 |
| **31 dekabr 2016-ci il tarixinə balans dəyəri** | **5,490,264** | **453,937** | **4,761** | **26,301** | **5,975,263** |
| 31 dekabr 2016-cı il tarixinə ilkin dəyər | 6,500,000 | 532,599 | 33,920 | 28,928 | 7,095,447 |
| Yığılmış amortizasiya | (1,009,736) | (78,662) | (29,159) | (2,627) | (1,120,184) |
| **31 dekabr 2016-ci il tarixinə balans dəyəri** | **5,490,264** | **453,937** | **4,761** | **26,301** | **5,975,263** |

31 dekabr 2016 və 2015-ci il tarixlərinə qeyri-maddi aktivlər əsasən bank əməliyyatlarının həyata keçirilməsi üçün istifadə olunan proqram təminatı üzrə lisenziyadan, modullardan və serverlərdən ibarətdir.

## 10 Digər Aktivlər

| *Azərbaycan manatı ilə* | 31 dekabr 2016 | 31 dekabr 2015 |
|---|---|---|
| Şirkətin adından yığımlar | 454,073 | 373,586 |
| Digər | 110,634 | 535,262 |
| ***Cəmi maliyyə aktivləri*** | **564,707** | **908,848** |
| Təxirə salınmış xərclər | 37,254 | 153,465 |
| **Cəmi digər aktivlər** | **601,961** | **1,062,313** |

Şirkətin adından yığımlar müştərilərin ödənişləri üzrə hesablaşma-kassa xidmətləri göstərən müəssisələrdən alınacaq yolda olan pul vəsaitlərini əks etdirir.

## 11 Banklardan Alınmış Kreditlər

| *Azərbaycan manatı ilə* | Ödəniş tarixi | Nominal faiz dərəcəsi % | 31 dekabr 2016 | 31 dekabr 2015 |
|---|---|---|---|---|
| Paşa Bank ASC | 14 noyabr 2016 | 16% | - | 1,676,482 |
| Kapital Bank ASC | 19 sentyabr 2016 | 12% | - | 335,969 |
| Paşa Bank ASC | 22 may 2018 | 12% | 1,519,500 | 2,530,165 |
| Paşa Bank ASC | 13 sentyabr 2018 | 12% | 2,012,000 | 3,011,159 |
| Paşa Bank ASC | 20 noyabr 2017 | 19% | 1,195,800 | - |
| Kapital Bank ASC | 27 dekabr 2019 | 19% | 3,488,042 | - |
| **Cəmi banklardan alınmış kreditlər** | | | **8,215,342** | **7,553,775** |

31 dekabr 2016 və 2015-ci il tarixlərinə bu kreditlər əsas borc və hesablanmış ödəniləcək faizlədən ibarətdir. 31 dekabr 2016-cı il tarixinə hesablanmış ödəniləcək faizlər 44,008 AZN (2015: 72,050 AZN) təşkil etmişdir.

31 dekabr 2016 və 2015-ci il tarixlərində başa çatan illər üzrə banklardan alınmış kreditlər üzrə faizlər bazar faiz dərəcələrinə uyğun olmuşdur. 31 dekabr 2016 və 2015-ci il tarixlərinə banklardan alınmış kreditlərin balans dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir.

31 dekabr 2016 və 2015-ci il tarixlərinə Şirkət "Kapital Bank" ASC ilə imzalanmış kredit müqaviləsində nəzərdə tutulan xüsusi maliyyə şərtlərini pozmamışdır.

Banklardan alınmış kreditlərin coğrafi, valyuta, eləcə də ödəmə müddəti və faiz dərəcəsi üzrə təhlili 19-cu Qeyddə göstərilir.

## 12 Mebel İstehsalçısına və Digər Tərəfdaşlara Ödənilməli Vəsaitlər

| *Azərbaycan manatı ilə* | 31 dekabr 2016 | 31 dekabr 2015 |
|---|---|---|
| "Embawood" MMC-yə ödənilməli vəsaitlər | 158,456 | 3,067,531 |
| Digər tərəfdaşlara ödənilməli vəsaitlər | 80,085 | - |
| **Cəmi mebel istehsalçısına və digər tərəfdaşlara ödənilməli vəsaitlər** | **238,541** | **3,067,531** |

2015 və 2016-cı illər ərzində Şirkət "faizsiz kredit kampaniyası" keçirmişdir. Şirkət özünün əlaqəli tərəfi olan "Embawood" MMC-dən mebel və digər məişət avadanlıqları əldə etmək məqsədilə müştərilərə 1 il müddətinə faizsiz kreditlər verir. Malların satış qiyməti kreditin ayrıldığı və ya daha sonrakı bir tarixdə birbaşa olaraq "Embawood" MMC-yə köçürülür. Kampaniyaya əsasən "Embawood" MMC kreditin ilk altı ay üzrə məcmu faizinə bərabər məbləği Şirkətə ödəyir ki, belə məbləğ də on iki aylıq annuitet üzrə 28% dərəcə ilə hesablanır. Əldə olunmuş faiz gəliri təxirə salınmış faiz gəliri kimi tanınır və on iki ay müddətində mənfəət və ya zərərdə göstərilir. 31 dekabr 2016-cı il tarixinə təxirə salınmış faiz gəlirləri 88,083 AZN (2015: 526,006 AZN) təşkil etmişdir.

## 13 Nizamnamə Kapitalı

31 dekabr 2016 və 2015-ci il tarixlərinə Şirkətin təsdiq edilmiş səhmdar kapitalı hər birinin nominal dəyəri 500 AZN olan 20,000 ədəd adi səhmdən ibarət olmuşdur. 31 dekabr 2016 və 2015-ci il tarixlərinə buraxılmış, lakin ödənilməmiş səhmlər olmamışdır.

## 14 Digər Öhdəliklər

| *Azərbaycan manatı ilə* | **2016** | **2015** |
|---|---|---|
| Təxirə salınmış faiz gəliri | 88,083 | 526,006 |
| İşçilərə ödənilməli vəsaitlər | 126,784 | 105,929 |
| Digər | 34,646 | 32,740 |
| *Cəmi digər qeyri-maliyyə öhdəlikləri* | 249,513 | 664,675 |
| Mənfəət vergisindən başqa vergilər | 105,896 | 39,106 |
| Digər | 65,317 | 127,170 |
| **Cəmi digər öhdəliklər** | **420,726** | **830,951** |

## 15 Faiz Gəliri və Xərci

| *Azərbaycan manatı ilə* | **2016** | **2015** |
|---|---|---|
| **Faiz gəliri** | | |
| Müştərilərə verilmiş kreditlər | 4,692,960 | 7,900,524 |
| **Cəmi faiz gəliri** | **4,692,960** | **7,900,524** |
| **Faiz xərci** | | |
| Banklardan alınmış kreditlər | 877,832 | 1,913,044 |
| Digər | 58,392 | 48,722 |
| **Cəmi faiz xərci** | **936,224** | **1,961,766** |
| **Xalis faiz gəliri** | **3,756,736** | **5,938,758** |

Dəyərsizləşmiş maliyyə aktivləri üzrə faiz gəliri 163,519 AZN (2015: 413,930 AZN) təşkil etmişdir.

12-ci Qeyddə açıqlandığı kimi Şirkət 2014-cü ilin fevral ayında "faizsiz kredit kampaniyası"na başlamışdır. Şirkət bu kreditlərin ədalətli dəyərini eyni kredit növləri üçün tətbiq olunan bazar dərəcələrindən istifadə etməklə hesablanmış, zərəri isə aktivlərin ilkin tanınma anında mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda tanınmışdır. Diskontlaşdırılmış dəyərin qaytarılması faiz gəliri kimi tanınmışdır.

## 16 Haqq və Komissiya Gəliri və Xərci

| *Azərbaycan manatı ilə* | 2016 | 2015 |
|---|---|---|
| **Haqq və komissiya gəliri** | | |
| *Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə əks etdirilməyən maliyyə alətləri üzrə haqq və komissiya gəliri:* | | |
| - Kredit əməliyyatları üzrə haqq və komissiya gəliri | 473,017 | - |
| - Digər | 18,471 | 25,490 |
| **Cəmi haqq və komissiya gəliri** | **491,488** | **25,490** |

| *Azərbaycan manatı ilə* | 2016 | 2015 |
|---|---|---|
| **Haqq və komissiya xərci** | | |
| *Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə əks etdirilməyən maliyyə alətləri üzrə haqq və komissiya xərcləri* | | |
| - Ödəmə məntəqlərindəki əməliyyatlar | 120,362 | 199,990 |
| - Yığımlar | 33,907 | 57,610 |
| - Digər | 37,750 | 17,031 |
| **Cəmi haqq və komissiya xərci** | **192,019** | **274,631** |
| **Xalis haqq və komissiya gəliri/(xərci)** | **299,469** | **(249,141)** |

## 17 İnzibati və sair Əməliyyat Xərcləri

| *Azərbaycan manatı ilə* | Qeyd | 2016 | 2015 |
|---|---|---|---|
| İşçi heyəti ilə bağlı xərclər | | 1,937,729 | 2,241,928 |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlərin amortizasiya xərcləri | | 334,169 | 267,455 |
| Proqram təminatı və rabitə xərcləri | | 194,686 | 202,049 |
| "Embawood" MMC-yə ödənişlər | | 195,582 | 174,499 |
| Vergi xərci | | 78,409 | 62,529 |
| İcarə xərcləri | | 24,000 | 24,000 |
| Ezamiyyə xərcləri | | 9,477 | 15,178 |
| Reklam xərcləri | | 1,372 | 10,974 |
| Ofis xərcləri | | 12,452 | 14,464 |
| Sığorta xərcləri | | 13,184 | 3,575 |
| Peşəkar xidmətlər | | 11,909 | 2,950 |
| Mühafizə xərcləri | | 2,829 | 2,829 |
| Əmlak və avadanlıqlar ilə bağlı təmir xərcləri | | 2,388 | 6,253 |
| Digər xərclər | | 80,673 | 98,057 |
| **Cəmi inzibati və sair əməliyyat xərcləri** | | **2,898,859** | **3,126,740** |

İşçi heyəti ilə bağlı xərclərə 349,426 AZN (2015: 399,286 AZN) məbləğində sosial sığorta ödənişləri daxildir.

"Embawood" MMC-yə ödənişlər Şirkətlə Embawood arasındakı razılaşmaya uyğun olaraq ödənilmiş xərcləri əks etdirir.

"Embawood" MMC-nin mağazalarında Şirkətin kredit mütəxəssisləri üçün müəyyən yer ayrılmış və onlar dəftərxana ləvazimatları və davamlı internet bağlantısı, kompüter avadanlığının texniki təhlükəsizliyi və iş yerində təhlükəsizlik kimi İT xidmətləri ilə təmin edilmiş, eləcə də satış məntəqələrində Şirkətin müvafiq mütəxəssislərinin normal iş mühitini qoruyub saxlamaq üçün digər zəruri şərait yaradılmışdır.

## 18 Mənfəət Vergisi

### *(a) Mənfəət vergisi xərcinin/(faydasının) komponentləri*

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

| *Azərbaycan manatı ilə* | 2016 | 2015 |
|---|---|---|
| Cari il üzrə vergi | 206,910 | 109,574 |
| Təxirə salınmış vergi | 47,791 | (56,880) |
| **İl üzrə mənfəət vergisi xərci** | **254,701** | **52,694** |

### *(b) Mənfəət vergisi xərci ilə mənfəət və ya zərərin qanunvericiliklə müəyyən edilmiş müvafiq vergi dərəcəsinə olan hasilinin üzləşdirilməsi*

2016 və 2015-ci illər ərzində Şirkətə tətbiq edilən mənfəət vergisi dərəcəsi 20% təşkil etmişdir. Gözlənilən və faktiki tətbiq edilən vergi xərclərinin üzləşdirilməsi aşağıda göstərilir.

| *Azərbaycan manatı ilə* | 2016 | 2015 |
|---|---|---|
| **Vergidən əvvəlki mənfəət** | **1,332,153** | **119,473** |
| Qanunvericiliklə müəyyən edilmiş 20% dərəcə ilə hesablanmalı olan mənfəət vergisi xərci | 266,431 | 23,895 |
| Vergi məqsədləri üçün çıxılmayan xərclərin vergi effekti: | | |
| - Digər | (16,993) | - |
| - Gəlirdən çıxılmayan xərclər | 5,263 | 28,799 |
| **İl üzrə mənfəət vergisi xərci** | **254,701** | **52,694** |

### *(c) Müvəqqəti fərqlərin növləri üzrə təxirə salınmış vergilərin təhlili*

BMHS və Azərbaycan Respublikasının yerli vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması məqsədilə aktiv və öhdəliklərin balans dəyəri arasında müvəqqəti fərqlər əmələ gəlir. Bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir və 20% (2015: 20%) dərəcəsində qeydə alınır.

| *Azərbaycan manatı ilə* | 1 yanvar 2016 | Mənfəət və ya zərərə gəlir kimi yazılmışdır | 31 dekabr 2016 |
|---|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlərin vergi effekti** | | | |
| Müştərilərə verilmiş kreditlər | 277,279 | (39,352) | 237,927 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | (31,144) | (35,297) | (66,441) |
| Digər öhdəliklər | (19,334) | 26,858 | 7,524 |
| **Təxirə salınmış xalis vergi aktivi** | **226,801** | **(47,791)** | **179,010** |

31 dekabr 2015-ci il tarixində başa çatan il üçün müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi effekti aşağıda göstərilir:

| *Azərbaycan manatı ilə* | 1 yanvar 2015 | Mənfəət və ya zərərə gəlir kimi yazılmışdır | 31 dekabr 2015 |
|---|---|---|---|
| **Vergi bazasını azaldan müvəqqəti fərqlərin vergi effekti** | | | |
| Müştərilərə verilmiş kreditlər | 178,375 | 98,904 | 277,279 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | - | (31,144) | (31,144) |
| Digər öhdəliklər | (8,454) | (10,880) | (19,334) |
| **Təxirə salınmış xalis vergi aktivi** | **169,921** | **56,880** | **226,801** |

## 19 Maliyyə Risklərinin İdarə Edilməsi

Risklərin idarə edilməsi maliyyə (kredit, bazar, coğrafi, valyuta, likvidlik və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinin idarə edilməsinin əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

***Kredit riski.*** Maliyyə aləti üzrə əməliyyat aparan bir tərəf öz öhdəliyini yerinə yetirməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurduqda, Şirkət kredit riskinə məruz qalır. Kredit riski Şirkətin qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır.

Müştəri münasibətləri üzrə müvafiq kredit mütəxəssisləri tərəfindən yaradılmış kredit ərizələri kredit limitinin təsdiqlənməsi üçün müvafiq kredit komitəsinə təqdim edilir. Kredit riski həmçinin hüquqi və fiziki şəxslərin təminat və zəmanətlərini almaqla idarə olunur.

Fiziki şəxslər olan borcalanlar üzrə qiymətləndirmə metodologiyası təhsil, fəaliyyət sahəsi, iş yeri, kredit tarixçəsi, xalis aylıq gəlir kimi meyarlar əsasında həyata keçirilir. Əldə edilmiş məlumatlara əsasən müştərinin ərizəsi ya təsdiqlənir ya da imtina edilir.

Əsas kredit risklərinin idarə edilməsi metodları Şirkətin qəbul etdiyi Kredit Siyasətində qeyd olunur. Bu, əvvəlcədən müəyyən edilmiş meyarlara əsasən (sahə, müddət, əlaqəli tərəflər, region və.s) limitlərin təyin edilməsi və kredit portfelinin diversifikasiyasını əhatə edir. Kreditlər, həmçinin başlanğıcda və müddətin sonuna qədər "ən yaxşı praktika reytinqi" və "qiymətləndirmə sistemləri" əsasında təyin edilmiş risk dərəcələrinə görə təsnifləşdirilir. Bu vasitələr həmçinin potensial itkilər üçün münasib ehtiyatların yaradılmasında da istifadə ediləcək. Kredit əməliyyatları ilə bağlı Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən tətbiq edilən bütün məhdudiyyət və normativlər Şirkətin Kredit Siyasətində nəzərə alınıb.

Şirkət məruz qaldığı kredit riskinə bir borcalan, eləcə də coğrafi və ya fəaliyyət seqmentləri üzrə limitlər müəyyən etməklə nəzarət edir.

Şirkətin kredit departamenti kredit qalıqlarının ödəmə müddətləri üzrə təhlil aparır və vaxtı keçmiş kreditlərə hər ay xüsusi nəzarət edir. Bununla əlaqədar olaraq, rəhbərlik kreditlərin ödəmə müddətləri və kredit riski haqqında məlumatları təqdim edir.

***Bazar riski.*** Bazar riski Şirkətin gəlir və ya kapitalının və ya onun fəaliyyət məqsədlərini yerinə yetirə bilmə qabiliyyətinin bazar faiz dərəcələrinin və ya qiymətlərinin səviyyəsinin dəyişməsi və ya onların dəyişkənliyi nəticəsində mənfi təsirə məruz qalmasıdır. Bazar riskinə Şirkətin məruz qaldığı faiz dərəcəsi riski, valyuta riski, kredit spredləri, əmtəə qiymətləri və səhmlərin məzənnəsi aiddir. Şirkətin riskləri ölçmə metodlarında və ya məruz qaldığı risklərdə, yaxud bu risklərin idarə edilmə və ölçülmə qaydasında heç bir dəyişiklik olmamışdır.

***Xarici valyuta riski.*** Şirkət xarici valyuta məzənnələrindəki dəyişikliklərin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar xarici valyuta riskinə məruz qalır. Rəhbərlik hər bir valyuta üzrə və ümumilikdə risklərin səviyyəsi ilə əlaqədar günün sonunda, həmçinin bir gün ərzində limitlər müəyyən edir və bu limitlərə gündəlik nəzarət edir. Şirkət spekulyativ fəaliyyət və ya hecinq məqsədləri üçün hər hansı törəmə alətlərlə əməliyyat aparmır. Belə maliyyə alətləri Azərbaycan Respublikasında geniş yayılmamışdır.

Hesabat dövrünün sonuna Şirkətin məruz qaldığı valyuta riski üzrə ümumi təhlil aşağıdakı cədvəldə əks etdirilir:

| | 31 dekabr 2016 | | | 31 dekabr 2015 | | |
|---|---|---|---|---|---|---|
| *Azərbaycan manatı ilə* | **Monetar maliyyə aktivləri** | **Monetar maliyyə öhdəlikləri** | **Xalis mövqe** | **Monetar maliyyə aktivləri** | **Monetar maliyyə öhdəlikləri** | **Xalis mövqe** |
| AZN | 15,766,512 | (8,703,396) | 7,063,116 | 17,085,500 | (11,285,981) | 5,799,519 |
| ABŞ dolları | 577 | - | 577 | 399 | - | 399 |
| Avro | 463 | - | 463 | 461 | - | 461 |
| **Cəmi** | **15,767,552** | **(8,703,396)** | **7,064,156** | **17,086,360** | **(11,285,981)** | **5,800,379** |

## 19 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Bütün digər dəyişənlərin sabit qalması şərtilə, hesabat dövrünün sonuna tətbiq edilən valyuta məzənnələrindəki mümkün dəyişikliklərin mənfəət və ya zərərə, eləcə də kapitala təsiri aşağıdakı cədvəldə əks etdirilir:

| *Azərbaycan manatı ilə* | 31 dekabr 2016<br>Mənfəət və ya zərərə təsir | 31 dekabr 2015<br>Mənfəət və ya zərərə təsir |
|---|---|---|
| ABŞ dollarının 20% möhkəmlənməsi (2015: 35% möhkəmlənməsi) | 115 | 140 |
| ABŞ dollarının 20% zəifləməsi (2015: 35% zəifləməsi) | (115) | (140) |
| Avronun 20% möhkəmlənməsi (2015: 35% möhkəmlənməsi) | 93 | 161 |
| Avronun 20% zəifləməsi (2015: 35% zəifləməsi) | (93) | (161) |

Valyuta məzənnələrindəki belə dəyişikliklərin Şirkətin mənfəət və ya zərərinə təsirindən başqa, kapitala hər hansı təsiri yoxdur. Yuxarıda qeyd edilən risklər yalnız Şirkətin funksional valyutasından fərqli valyutalarda ifadə olunan pul qalıqları üçün hesablanmışdır.

Şirkət həssaslıq təhlili apararkən aşağıdakı mülahizələri irəli sürür:

- Həssaslıq təhlili Şirkətin bu məlumatları növbəti dəfə təqdim edəcəyi dövrə qədər olan müddət ərzində baş verə biləcək bütün dəyişiklikləri əks etdirir. Məlumatların növbəti təqdim olunma dövrü adətən növbəti illik hesabat dövrü ilə üst-üstə düşür.
- Şirkət bütün mümkün dəyişikliklərin deyil, yalnız müvafiq risk dəyişəninin mümkün ola biləcək limitləri çərçivəsindəki dəyişikliklərin təsirini açıqlayır.

***Faiz dərəcəsi riski.*** Şirkət bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar riskə məruz qalır. Bu cür dəyişikliklər nəticəsində faiz marjaları arta bilər, lakin faiz dərəcələri üzrə gözlənilməyən dəyişikliklər baş verdiyi təqdirdə faiz marjaları həmçinin azala və ya zərərin yaranmasına səbəb ola bilər. Rəhbərlik faiz dərəcələrinin dəyişməsinin qəbul edilə bilən səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə hər gün nəzarət edir.

Şirkətin məruz qaldığı faiz dərəcəsi riski üzrə ümumi təhlil aşağıda göstərilir. Cədvəldə Şirkətin cəmi maliyyə aktiv və öhdəlikləri müqavilə üzrə faiz dərəcələrinin dəyişməsi tarixlərinə və ya ödəmə müddətlərinə görə (bu tarixlərdən hansı daha tez baş verərsə) təsnifləşdirilir.

| *Azərbaycan manatı ilə* | Tələb edilənədək və 1 aydan az | 1aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | Faizsiz | Cəmi |
|---|---|---|---|---|---|---|
| **31 dekabr 2016** | | | | | | |
| Cəmi maliyyə aktivləri | 1,777,531 | 3,130,451 | 8,436,695 | 1,757,522 | 665,353 | 15,767,552 |
| Cəmi maliyyə öhdəlikləri | (356,396) | (695,437) | (3,242,054) | (3,921,455) | (488,054) | (8,703,396) |
| **31 dekabr 2016-cı il tarixinə faiz dərəcələri üzrə xalis həssaslıq kəsiri** | **1,421,135** | **2,435,014** | **5,194,641** | **(2,163,933)** | **177,299** | **7,064,156** |
| **31 dekabr 2015** | | | | | | |
| Cəmi maliyyə aktivləri | 1,549,825 | 3,744,950 | 8,297,718 | 2,466,153 | 1,027,714 | 17,086,360 |
| Cəmi maliyyə öhdəlikləri | (85,614) | (968,158) | (6,067,534) | (3,500,000) | (664,675) | (11,285,981) |
| **31 dekabr 2015-ci il tarixinə faiz dərəcələri üzrə xalis həssaslıq kəsiri** | **1,464,211** | **2,776,792** | **2,230,184** | **(1,033,847)** | **363,039** | **5,800,379** |

## 19 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Şirkət maliyyə alətləri üzrə faiz dərəcələrinə nəzarət edir. Şirkətin əsas idarəedici rəhbərliyi tərəfindən təhlil edilmiş hesabatlara əsaslanan faiz dərəcələri aşağıdakı cədvəldə göstərilir:

| *İllik % dərəcəsi* | 2016 AZN | 2015 AZN |
|---|---|---|
| **Aktivlər** | | |
| Müştərilərə verilmiş kreditlər | 29.0% | 28.9% |
| **Öhdəliklər** | | |
| Banklardan alınmış kreditlər | 19% | 12% |
| Tərəfdaşlara ödənilməli vəsaitlər | - | 8.24% |

Bütün digər maliyyə aktiv və öhdəlikləri üçün faiz hesablanmır.

***Coğrafi risk konsentrasiyası.*** 31 dekabr 2016 və 2015-ci il tarixlərinə Şirkətin kredit fəaliyyəti yalnız Azərbaycan Respublikası ərazisində həyata keçirilmişdir. Şirkətin bütün maliyyə aktiv və öhdəlikləri tam olaraq (100%) Azərbaycan Respublikasının ərazisində yerləşmişdir ki, bu da bir bölgə üzrə əhəmiyyətli coğrafi konsentrasiyanı göstərir.

***Likvidlik riski.*** Likvidlik riski maliyyə öhdəliklərindən yerinə yetirilməsində Şirkətin çətinliklərlə üzləşəcəyi riskdir. Buraya faktiki olaraq ödəmə vaxtı çatmış maliyyə alətləri üzrə digər maliyyə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər vəsaitlərin mövcud olması aiddir. Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin öhdəliklər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır. Şirkətin Rəhbərliyinin fikrincə aktiv və öhdəliklərin ödəmə müddətlərinin və faiz dərəcələrinin uyğunluğu və/və ya nəzarət olunan uyğunsuzluğu maliyyə təşkilatlarının idarə olunması üçün əsas amillərdir.

Likvidlik riskini idarə etmək məqsədilə Şirkət aktiv/öhdəliklərin idarə edilməsi prosesinin bir hissəsi kimi müştərilərin və bankların əməliyyatları üzrə gözlənilən gələcək pul vəsaitlərinin hərəkətinə hər gün nəzarət edir. Onlar həmçinin öhdəlik bazasının diversifikasiya riski üzrə parametrlər müəyyən edir.

Şirkətin likvidlik siyasəti aşağıdakıları özündə əks etdirir:

- Pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması və müxtəlif vaxt çərçivələrində likvidliyin təmin edilməsi üçün lazımi likvid aktivlərin səviyyəsinin saxlanması;
- Şirkətin strateji məqsədlərinə uyğun olan maliyyələşdirmə planının hazırlanması;
- Müxtəlif maliyyələşdirmə mənbələrinin saxlanması və bununla, Şirkətin yerli və xarici mənbələrdən borc almaq imkanlarının artırılması;
- Yüksək likvidli və yüksək keyfiyyətli aktivlərin saxlanması;
- Məhsul bazasının müəyyən vaxt çərçivəsində mövcud maliyyələşdirmə mənbələrinə uyğunlaşdırılması; və
- Müəyyən vaxt çərçivəsində aktiv və öhdəlik strukturunun davamlı monitorinqinin aparılması.

Aşağıdakı cədvəllərdə potensial olaraq yarana biləcək faizlər də daxil olmaqla, Şirkətin öhdəliklərinin balans dəyəri balans tarixindən müqavilədə nəzərdə tutulan ödəmə tarixinədək qalan müddət üzrə qruplaşdırılır.

## 19 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

31 dekabr 2016-cı il tarixinə maliyyə alətlərinin diskont edilməmiş ödəmə müddətlərinə görə təhlili aşağıda göstərilir:

| *Azərbaycan manatı ilə* | Tələb edilənədək və 1 aydan az | 1aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | Cəmi |
|---|---|---|---|---|---|
| **Aktivlər** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 100,646 | - | - | - | 100,646 |
| Müştərilərə verilmiş kreditlər | 2,053,306 | 3,394,287 | 9,993,792 | 1,963,380 | 17,404,765 |
| Digər maliyyə aktivləri | 564,707 | - | - | - | 564,707 |
| **Cəmi** | **2,718,659** | **3,394,287** | **9,993,792** | **1,963,380** | **18,070,118** |
| **Öhdəliklər** | | | | | |
| Banklardan alınmış kreditlər | (465,812) | (900,941) | (4,054,234) | (4,515,595) | (9,936,582) |
| "Embawood" MMC-yə ödənilməli vəsaitlər | (158,456) | - | - | - | (158,456) |
| Digər tərəfdaşlara ödənilməli vəsaitlər | (80,085) | - | - | - | (80,085) |
| Digər maliyyə öhdəlikləri | (249,513) | - | - | - | (249,513) |
| **Maliyyə öhdəlikləri üzrə cəmi potensial gələcək ödənişlər** | **(953,866)** | **(900,941)** | **(4,054,234)** | **(4,515,595)** | **(10,424,636)** |
| **Maliyyə alətləri üzrə likvidlik kəsiri** | **1,764,793** | **2,493,346** | **5,939,558** | **(2,552,215)** | **7,645,482** |

31 dekabr 2015-ci il tarixinə maliyyə alətlərinin diskont edilməmiş ödəmə müddətlərinə görə təhlili aşağıda göstərilir:

| *Azərbaycan manatı ilə* | Tələb edilənədək və 1 aydan az | 1aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | Cəmi |
|---|---|---|---|---|---|
| **Aktivlər** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 118,866 | - | - | - | 118,866 |
| Müştərilərə verilmiş kreditlər | 3,716,532 | 10,227,784 | 13,088,777 | 29,150 | 27,062,243 |
| Digər maliyyə aktivləri | 908,848 | - | - | - | 908,848 |
| **Cəmi** | **4,744,246** | **10,227,784** | **13,088,777** | **29,150** | **28,089,957** |
| **Öhdəliklər** | | | | | |
| Banklardan alınmış kreditlər | (124,986) | (570,335) | (5,279,799) | (5,811,834) | (11,786,954) |
| "Embawood" MMC-yə ödənilməli vəsaitlər | (3,354,798) | - | (4,612,186) | - | (7,966,984) |
| Digər tərəfdaşlara ödənilməli vəsaitlər | - | - | - | - | - |
| Digər maliyyə öhdəlikləri | (664,675) | - | - | - | (664,675) |
| **Maliyyə öhdəlikləri üzrə cəmi potensial gələcək ödənişlər** | **(4,144,459)** | **(570,335)** | **(9,891,985)** | **(5,811,834)** | **(20,418,613)** |
| **Maliyyə alətləri üzrə likvidlik kəsiri** | **599,787** | **9,657,449** | **3,196,792** | **(5,782,684)** | **7,671,344** |

## 19 Maliyyə Risklərinin İdarə Edilməsi (davamı)

Şirkət likvidliyin idarə edilməsi üçün yuxarıda göstərilən diskontlaşdırmanı nəzərə almadan öhdəliklərin ödəmə müddətləri üzrə yuxarıda göstərilən təhlilindən istifadə etmir. Bunun əvəzində, Şirkət aşağıda göstərildiyi kimi gözlənilən ödəmə müddətlərinə və likvidlik çatışmazlığına nəzarət edir:

| *Azərbaycan manatı ilə* | **Tələb edilənədək və 1 aydan az** | **1aydan 3 aya qədər** | **3 aydan 1 ilə qədər** | **1 ildən 5 ilə qədər** | **Cəmi** |
|---|---|---|---|---|---|
| **31 dekabr 2016** | | | | | |
| Maliyyə aktivləri | 2,442,884 | 3,130,451 | 8,436,695 | 1,757,522 | 15,767,552 |
| Maliyyə öhdəlikləri | (844,450) | (695,437) | (3,242,054) | (3,921,455) | (8,703,396) |
| **Gözlənilən ödəmə müddətlərinə əsasən xalis likvidlik kəsiri** | **1,598,434** | **2,435,014** | **5,194,641** | **(2,163,933)** | **7,064,156** |
| **31 dekabr 2015** | | | | | |
| Maliyyə aktivləri | 2,577,539 | 3,744,950 | 8,297,718 | 2,466,153 | 17,086,360 |
| Maliyyə öhdəlikləri | (750,289) | (968,158) | (6,067,534) | (3,500,000) | (11,285,981) |
| **Gözlənilən ödəmə müddətlərinə əsasən xalis likvidlik kəsiri** | **1,827,250** | **2,776,792** | **2,230,184** | **(1,033,847)** | **5,800,379** |

Rəhbərliyin fikrincə aktiv və öhdəliklərinin ödəmə müddətlərinin və faiz dərəcələrinin uyğunluğu və/və ya nəzarət olunan uyğunsuzluğu Şirkətin likvidlik riskinin idarə olunması üçün əsas amillərdir. Ümumiyyətlə, maliyyə təşkilatlarında bu göstəricilərə tam uyğunluq təmin edilmir. Belə ki, əməliyyatlar çox zaman qeyri-müəyyən müddətə aparılır və fərqli xarakterli daşıyır. Bu göstəricilər üzrə uyğunsuzluq potensial olaraq gəlirliliyi artıra, lakin eyni zamanda zərərin baş vermə riskini yüksəldə bilər. Aktiv və öhdəliklərin ödəmə müddətləri, eləcə də ödəmə müddətləri tamamlandıqdan sonra faiz hesablanan öhdəliklərin münasib dəyərlə əvəz edilməsi imkanı, Şirkətin likvidliyinin və faiz dərəcələri və mübadilə məzənnələrinin dəyişəcəyi halda onun risklərinin qiymətləndirilməsi üçün əsas amillər hesab olunur.

Rəhbərlik hesab edir ki, Azərbaycanda fəaliyyət göstərən maliyyə institutları üçün mövcud olan əlverişli makroiqtisadi şərait, pul vəsaitləri üzrə müsbət daxilolmalar, əməliyyatların gəlirliliyi və tələb olunduqda mövcud maliyyə resurslarından istifadə likvidlik risklərini əhəmiyyətli dərəcədə azaldır.

## 20 Kapitalın İdarə Olunması

Kapitalın idarə olunmasında məqsəd Şirkətin fəaliyyətinin fasiləsizliyini və kifayət qədər kapital bazasının saxlanılmasını təmin etməkdir.

31 dekabr 2016 və 2015-ci il tarixlərinə Şirkət banklardan alınmış kreditlər ilə bağlı xüsusi maliyyə şərtlərində nəzərdə tutulan kapitalın adekvatlığı tələblərinə riayət etmişdir.

## 21 Təəhhüdlər və Şərti Öhdəliklər

***Məhkəmə prosesləri.*** Adi fəaliyyət gedişində vaxtaşırı olaraq Şirkətə qarşı irəli sürülə biləcək iddialarla əlaqədar, Şirkətin Rəhbərliyi öz təxminlərinə, eləcə də daxili və kənar peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün hər hansı ehtiyat yaradılmamışdır.

***Vergi qanunvericiliyi.*** Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Şirkətin əməliyyatları və fəaliyyəti ilə bağlı vergi qanunvericiliyinə dair rəhbərliyin mövqeləri müvafiq vergi orqanları tərəfindən sual altına qoyula bilər.

## 21 Təəhhüdlər və Şərti Öhdəliklər (davamı)

Azərbaycan Respublikasında cərəyan edən son hadisələr göstərir ki, vergi orqanları qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilər və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilər. Bunun nəticəsində, Şirkətə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyəti yoxlanıla bilər. Müəyyən hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

***Xüsusi maliyyə şərtlərinə riayət olunması.*** Şirkət əsasən borc vəsaitləri üzrə müqavilələrdə nəzərdə tutulan xüsusi maliyyə şərtlərinə riayət etmək məcburiyyətindədir. Belə xüsusi maliyyə şərtlərinə riayət edilməməsi Şirkət üçün mənfi nəticələrə, o cümlədən borclar ilə əlaqədar xərclərin artmasına və mövcud kreditlərin qaytarılması müddətinin dəyişməsinə gətirib çıxara bilər.

## 22 Maliyyə Alətlərinin Ədalətli Dəyəri

BMHS-ə əsasən ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirildiyi zaman aktivin satılması üçün alınacaq və öhdəliyin ötürülməsi üçün ödəniləcək dəyərdir.

**Dövri olaraq ədalətli dəyərlə qiymətləndirilməyən, lakin ədalətli dəyəri açıqlanan maliyyə aktiv və öhdəliklərinin ədalətli dəyəri**

Ədalətli dəyərlə qiymətləndirilməyən maliyyə alətlərinin ədalətli dəyərini hesablamaq üçün Şirkət aşağıdakı üsul və ehtimallardan istifadə etmişdir:

Ödəniş müddəti üç ay olan aktiv və öhdəliklərin balans dəyəri ödəmə müddətinin nisbətən qısa olması ilə əlaqədar olaraq təxminən onların ədalətli dəyərinə bərabərdir. Digərləri üçün ədalətli dəyər ilin sonuna müvafiq bazar dərəcələri ilə diskontlaşdırılmış təxmini gələcək pul vəsaitləri hərəkətinin cari dəyəri kimi və Şirkətin və ya qarşı tərəfin kredit riskinə düzəlişlər etməklə hesablanır.

***Müştərilərə verilmiş kreditlər*** – hesablama müvafiq ilin sonuna olan bazar dərəcələrindən istifadə edərək nəzarətdə tutulan ödəmə müddəti ərzində fərdi kreditlər üzrə planlaşdırılmış gələcək pul vəsaitləri hərəkətini diskontlaşdırmaqla aparılmışdır.

***Banklardan alınmış kreditlər*** – hesablama müvafiq ilin sonuna olan bazar dərəcələrindən istifadə edərək nəzərdə tutulan ödəmə müddəti ərzində fərdi kreditlər üzrə planlaşdırılmış gələcək pul vəsaitləri hərəkətini diskontlaşdırmaqla aparılmışdır.

Aşağıdakı cədvəldə maliyyə aktiv və öhdəliklərinin təxmini ədalətli dəyəri əks etdirilir.

| *Azərbaycan manatı ilə* | 31 dekabr 2016 Balans dəyəri | 31 dekabr 2016 Ədalətli dəyər (Səviyyə 2) | 31 dekabr 2015 Balans dəyəri | 31 dekabr 2015 Ədalətli dəyər (Səviyyə 2) |
|---|---|---|---|---|
| **Maliyyə aktivləri:** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 100,646 | 100,646 | 118,866 | 118,866 |
| Müştərilərə verilmiş kreditlər | 15,102,199 | 15,102,199 | 16,058,646 | 16,058,646 |
| Digər maliyyə aktivləri | 564,707 | 564,707 | 908,848 | 908,848 |
| **Maliyyə öhdəlikləri:** | | | | |
| Banklardan alınmış kreditlər | 8,215,342 | 8,215,342 | 7,553,775 | 7,553,775 |
| Tərəfdaşlara ödənilməli vəsaitlər | 238,541 | 238,541 | 3,067,531 | 3,067,531 |
| Digər maliyyə öhdəlikləri | 249,513 | 249,513 | 664,675 | 664,675 |

Bazar şərtləri əsasında maliyyə alətlərinə dair bağlanan müqavilələrin qısamüddətli olması səbəbindən pul vəsaitləri və onların ekvivalentlərinin, digər maliyyə aktivlərinin, səhmdarlara ödəniləcək vəsaitlərin və digər maliyyə öhdəliklərinin balans dəyəri təxminən onların ədalətli dəyərini əks etdirir.

Cədvəldə Səviyyə 2 kateqoriyasında daxil edilmiş maliyyə aktiv və öhdəliklərinin ədalətli dəyəri diskontlaşdırılmış pul vəsaitlərinin hərəkətinin təhlilinə əsasən və tərəflərin kredit riskini əks etdirən diskont dərəcəsi üzrə ilkin məlumatlardan istifadə etməklə ümumi qəbul edilmiş qiymətqoyma modellərinə uyğun olaraq müəyyən edilmişdir.

Müştərilərə verilmiş kreditlərin və avansların və banklardan alınmış kreditlərin ədalətli dəyəri fərdi aktivlərlə/öhdəliklərlə bağlı planlaşdırılmış gələcək pul vəsaitləri hərəkətini müvafiq ilin sonuna olan bazar dərəcələrindən istifadə edərək müəyyən olunan ödəmə müddəti üzrə diskontlaşdırmaqla hesablanır.

## 23 Maliyyə Alətlərinin Qiymətləndirmə Kateqoriyaları üzrə Təqdim Edilməsi

BMS 39, *Maliyyə Alətləri: Tanınması və Qiymətləndirilməsi* Standartına uyğun olaraq Şirkət maliyyə aktivlərini aşağıdakı kateqoriyalara təsnifləşdirir: (a) verilmiş kreditlər və debitor borcları; (b) satıla bilən maliyyə aktivləri; (c) ödəniş tarixinədək saxlanılan maliyyə aktivləri və (d) mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə əks etdirilən maliyyə aktivləri. "Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə əks etdirilən maliyyə aktivləri" kateqoriyası iki alt-kateqoriyaya bölünür: (i) ilkin tanınma zamanı bu kateqoriyaya aid edilmiş aktivlər və (ii) ticarət üçün maliyyə aktivləri.

Bütün maliyyə aktivləri "verilmiş kreditlər və debitor borcları" kimi təsnifləşdirilir.

Bütün maliyyə öhdəlikləri amortizasiya edilmiş dəyərlə əks etdirilir.

## 24 Əlaqəli Tərəflərlə Əməliyyatlar

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar birbaşa və ya dolayı yolla bir və ya bir neçə qrupun nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər ilə hər hansı mümkün münasibətlər nəzərdən keçirilərkən, həmin münasibətlərin mahiyyətinin onların hüquqi formasından üstünlüyü prinsipi tətbiq olunur.

31 dekabr 2016-cı il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimidir:

| *Azərbaycan manatı ilə* | **Əsas idarəedici heyət** | **Ümumi nəzarət altında olan müəssisələr** |
|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | 62,456 | 330,000 |
| "Embawood" MMC-yə ödənilməli vəsaitlər | - | 158,456 |
| Digər öhdəliklər | 38,331 | 88,083 |

31 dekabr 2015-ci il tarixinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıdakı kimidir:

| *Azərbaycan manatı ilə* | **Əsas idarəedici heyət** | **Ümumi nəzarət altında olan müəssisələr** |
|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | 272,163 | - |
| "Embawood" MMC-yə ödənilməli vəsaitlər | - | 3,067,531 |
| Digər öhdəliklər | 15,252 | 526,006 |

31 dekabr 2016 və 2015-ci il tarixlərində başa çatan illər üzrə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda əlaqəli tərəflərlə əməliyyatlar üzrə tanınmış məbləğlər aşağıda göstərilmişdir:

| *Azərbaycan manatı ilə* | **Əsas idarəedici heyət** | **Ümumi nəzarət altında olan müəssisələr** | **Səhmdar** |
|---|---|---|---|
| "Embawood" MMC-yə ödənişlər | - | - | 195,582 |
| İcarə xərcləri | - | 24,000 | - |
| Ezamiyyə xərcləri | 2,313 | - | - |
| Digər gəlir | - | - | 72,000 |

| *Azərbaycan manatı ilə* | **Əsas idarəedici heyət** | **Ümumi nəzarət altında olan müəssisələr** | **Səhmdar** |
|---|---|---|---|
| "Embawood" MMC-yə ödənişlər | - | - | 174,499 |
| İcarə xərcləri | - | 24,000 | - |
| Ezamiyyə xərcləri | 3,397 | - | - |
| Digər gəlir | - | - | 72,000 |

## 24 Əlaqəli Tərəflərlə Əməliyyatlar (davamı)

Əsas idarəedici heyətə ödənişlər aşağıdakı kimi olmuşdur:

| *Azərbaycan manatı ilə* | 2016<br>Xərclər | 2015<br>Xərclər |
|---|---|---|
| Qısamüddətli ödənişlər | 326,396 | 369,412 |

## 25 Hesabat Dövründən sonra Baş Vermiş Hadisələr

Şirkət ilə "Kapital Bank" ASC arasında imzalanmış 27 dekabr 2016-cı il tarixli kredit müqavilesində nəzərdə tutulan xüsusi maliyyə şərtlərinə əsasən Şirkət monitorinq tarixindən əvvəlki üç ay ərzində orta satış səviyyəsini 1,400,000 AZN-ə çatdırmalıdır. 2017-ci ildə aparılmış monitorinqdən əvvəlki üç ay ərzində Şirkətin orta satış səviyyəsi 1,290,000 AZN təşkil etmişdir. Rəhbərlik hesab edir ki, cari bazar mühitində kredit portfelinin keyfiyyətinə xüsusi diqqət yetirilməli və kreditlərin verilməsi ilə bağlı qərarlara düzgün yanaşma tətbiq edərək yığım səviyyəsi saxlanılmalı/artırılmalıdır.

Müqaviləyə əsasən Kapital Bank ASC növbəti üç ay ərzində aylıq əsas borc məbləğinin ikiqat ödənişini tələb etmək hüququna malikdir. Buna baxmayaraq rəhbərlik hesab edir ki, "Kapital Bank" ASC sağlam portfel və yığım səviyyəsinin təmin edilməsi istiqamətində rəhbərliyi dəstəkləyəcəkdir. Bank hazırkı maliyyə hesabatlarının İdarə Heyəti tərəfindən təsdiqləndiyi tarixədək kreditin ödənilməsini tələb etməmişdir. Rəhbərlik hesab edir ki, maliyyə hesabatlarının təsdiqləndiyi tarixə həmin xüsusi maliyyə şərtlərinin pozulması Şirkətə mənfi təsir göstərməmişdir.

1 yanvar 2017-ci il tarixindən hazırkı maliyyə hesabatlarının təsdiqləndiyi tarixədək Şirkət "Paşa Bank" ASC-yə 1,822,194.45 AZN, "Kapital Bank" ASC-yə isə 640,817.62 AZN ödəmişdir.